www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 iyun 2016-cı il Cümə № 138 (6459) Qiyməti 60 qəpik

**Xəbər**

## Sabiq MTN generalları üçün həbsxanada xüsusi korpus tikilir

yazısı səh.7-də

**Gündəm**

## Yay devalvasiyası anonsu: 100 dollar 180 manat olacaq




Manat ucuzlaşır, Mərkəzi Bank isə dolları qəpik-qəpik bahalaşdırır

yazısı səh.10-da

## Cahangir Hacıyevlə maliyyə nazirinin savaşı haqda şok detallar

yazısı səh.6-da

## Məhkəmə ədalətli femida rolunda-nə baş verir?

yazısı səh.3-də

## Bazarlardakı kəskin bahalaşmanın üç mühüm səbəbi

yazısı səh.12-də

## Rusiya-Türkiyə münasibətlərində yeni gərginlik

yazısı səh.9-da

## Yeni ipoteka şərtləri: 100 min manat üçün 1000 manat əməkhaqqı

yazısı səh.12-də

## Azərbaycanla Avropa İttifaqı arasında çərçivə sazişi hazırlanır

yazısı səh.9-da

## Papa bu gün İrəvana gəlir-"erməni sevgisinin" səbəbi nə?

yazısı səh.4-də

## Keçmiş siyasi məhbus Savçenko ilə görüşündən danışdı

yazısı səh.2-də

## QMİ və Dini Komitənin "haram oyunu"...

yazısı səh.15-də

### Ramazan ayının 18-ci günü

**İftar 20.31. İmsaq 03.09-dək (QMİ)**

**18-ci günün duası: "İlahi, bu orucluq ayının səhərlərinin bərəkətini mənə düşündür! Belə bir gündə Ramazan ayının işıq və nuru ilə qəlbimi işıqlandır! Mənim bütün bədən üzvlərimi bu ayda olan gözəl əməlləri yerinə yetirməyə müvəffəq et! Ey, qəlbləri nurlandıran Allah!"**

**İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".**

**ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!**

## Paşazadələrin şəriki məhkəmədə od püskürdü

# ŞEYXİN "GÖY MƏSCİD" ƏTRAFINDAKI MÜLK QALMAQALI - MƏHKƏMƏ ARAŞDIRMASI

Bakı Ağır Cinayətlər Məhkəməsində şahidlər dindirilir; **müttəhim Müğdət Həşimov:** "Obyektin 33 faizi Allahşükür Paşazadənin, 33 faizi Cavanşir Paşazadənin idi"; Hacı Mazan isə məhkəmədə ziddiyyətli ifadələr verdi




yazısı səh.8-də

# Türkiyə və İsrail vasitəçilərsiz barışın bir addımlığında - Bakı da avantajda

Ankara üzünü Moskvadan Təl-Əvivə çevirir - səbəb; böyük anlaşmaya sayılı günlər qaldı; diplomatik kanallar açılır; 6 illik fasilədən sonra bu gün ilk yəhudi rəsmisi Türkiyəyə gələcək...

yazısı səh.4-də



Bahar Muradova

## Vitse-spiker Qarabağ danışıqlarını "Yeni Müsavat"a şərh etdi

yazısı səh.5-də



## ABŞ dövlət katibinin köməkçisi Bakıda

yazısı səh.8-də



Şəmsiyyə Bəylərqızı

## Səfirin keçmiş arvadı həbsxanadan məktub yazdı: "Mən terrorçu deyiləm"

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 138 (6459) 24 iyun 2016



## Prezidentin mətbuat katibi orden aldı

**Prezident İlham Əliyev mətbuat katibi Azər Qasımovun təltif edilməsi haqqında sərəncam imzalayıb. Virtualaz.org dövlət başçısının saytına istinadən bildirir ki, sərəncama əsasən Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Azər Məhəmməd oğlu Qasımov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.**

## ATƏT sədri Minsk Qrupunun həmsədrləri ilə görüşdü



**Almaniyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Frank Volter Ştaynmayer ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüşüb.**

APA-nın məlumatına görə, bu barədə ATƏT-in Almaniyadakı sədrliyinin twitter səhifəsində qeyd olunub. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müzakirələr aparılıb.

Görüşə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik də qatılıb.

## "Kredit oliqarxları"nın məhkəməsi başlayır

**Daxili Işlər Nazirliyi "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinə külli miqdarda ziyan vurulması ilə bağlı açıqlama yayıb. Virtualaz.org saytı xəbər verir ki, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin İstintaq şöbəsində "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinə külli miqdarda ziyan vurulması faktına görə başlanmış cinayət işinin istintaqı bəzi epizodlar üzrə başa çatıb.**

Aparılmış istintaqla 2001-2015-ci illərdə Bankın İdarə Heyətinin sədri vəzifəsində işləmiş Cahangir Hacıyevin qeyriləri ilə qabaqcadan əlbir olub mütəşəkkil qrup yaradaraq ona rəhbərlik etməsinə, qulluq mövqeyindən sui-istifadə edərək özünün, ailə üzvlərinin və digər şəxslərin adına kart hesablarının açılması və həmin hesablara külli miqdarda pul vəsaitlərinin köçürülməsi barədə qanunsuz göstərişlər verməsinə, eləcə də C.Hacıyev və cinayətin digər iştirakçılarının Müşahidə Şurasının qərarı olmadan "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin filiallarında bir çox fiziki şəxsin adına 47 milyon 144 min manat kredit pullarını rəsmiləşdirərək mənimsəmələrinə və beləliklə, səhmdar cəmiyyətə ümumilikdə 211 milyon 597 min manat məbləğində ziyan vurmalarına şübhələr üçün əsaslar müəyyən edilib. Qeyd edilən epizodlar üzrə C.Hacıyevə və digər 7 şəxsə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan edilib, iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunmuş Zamirə Hacıyeva istintaqdan gizləndiyi üçün barəsində həbs-qətimkan tədbiri seçilərək axtarış elan edilib.

Hazırda təqsirləndirilən şəxslər və onların müdafiəçiləri iş materialları ilə tanış edilir və cinayət prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq cinayət işi məhkəməyə göndərilmək ərəfəsindədir.

Eyni zamanda istintaq prosesində ölkə daxilində və bir sıra xarici dövlətlərdə müxtəlif lahiyələrin həyata keçirilməsi adı altında yaradılmış 100-dən çox müəssisə və şirkət vasitəsilə "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən götürülmüş külli miqdarda pul vəsaitlərinin mənimsənilməsinə şübhələr üçün əsaslar müəyyən edildiyindən ayrıca icraatda cinayət işi açılıb.

İş üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Keçmiş siyasi məhbus Savçenko ilə görüşündən danışdı

**Strasburqda 4 gün davam edən AŞ PA-nın yay sessiyası bu gün başa çatır. Sessiya dünya gündəmini zəbt edən bir sıra məsələlərlə yadda qaldı. Əsas da Ukraynanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü, Milli Qəhrəman Nadejda Savçenkonun tədbirdə iştirakı gündəm oldu.**




Savçenkonun REAL hərəkatının həbsdəki sədri İlqar Məmmədovla bağlı Avropa İttifaqının binası qarşısında keçirilən aksiyaya üzərində vicdan məhbusuna azadlıq tələb olunan plakatla qatılması, eləcə də sessiyada iştirak edən keçmiş siyasi məhbuslar- hüquq müdafiəçisi Rəsul Cəfərov və jurnalist Pərviz Həşimli ilə fotolarının yayılması onun daha çox önə çıxmasına səbəb oldu.

Sessiyada iştirak edən Rəsul Cəfərovdan tədbirin gedişatı, Azərbaycanla bağlı səslənən fikirlər və Savçenko ilə görüşü barədə fikirlərini aldıq.

**Hüquq müdafiəçisi görüş barədə bunları dedi:** "Biz Savçenko ilə Avropa Şurası Parlament Assembleyasının üzvləri ilə görüşlər çərçivəsində görüşdük. Yəni onunla xüsusi görüş deyildi, bizim məqsədimiz də onu Azərbaycanda olan proseslərlə daha yaxından tanış etmək və AŞ PA-nın üzvü kimi dəstəyini qazanmaq idi. İlqar Məmmədovla bağlı keçirilən aksiya barədə məlumatlı idi. Öz istəyi ilə səhər saatlarında aksiyaya gəldi. İlqar bəy barədə də məlumatı var idi. Onun Azərbaycanda siyasi motivlərlə həbsdə olduğunu və onun azadlığa çıxmalı olduğunu bildirdi. Görüşümüz uğurlu alındı. Onun üçün AŞ PA yenidir. Bizimlə görüş onun üçün də əhəmiyyətli oldu. O baxımdan ki, QHT nümayəndələri ilə işləmək zəruridir. Savçenkonun sessiyada iştirak edən Azərbaycanlı deputatlarla görüşü barədə məlumatım yoxdur".

**Qeyd edək ki, AŞ PA sessiyası Türkiyə üçün uğurlu keçməyib. R.Cəfərov Türkiyə ilə bağlı qəbul edilmiş hesabata təəssüfləndiyini gizlətmədi:** "Türkiyəyə ilin sonuna kimi vaxt verildi və əgər vəziyyət dəyişməyəcəksə, Türkiyəni monitorinq altında olan ölkələr siyahısına qaytaracaqlar. Bu da ölkənin imicinə mənfi təsirdir. Buna təəssüf edirəm. Düşünürəm ki, Türkiyədə insan haqları ilə bağlı məsələlərə daha çox diqqət yetirilməlidir".

**Hüquq müdafiəçisi AŞ PA sessiyasında Azərbaycana olan münasibət barədə də danışdı:** "Burada, məncə, hamı anlayir ki, siyasi məhbusların azadlığa çıxması müsbətdir, amma kifayət deyil. Bir sıra siyasi məhbusların hələ də həbsdə qalması və QHT qanunvericiliyindəki mürtəce məhdudiyyətlərin qalması əsas problemlər kimi qeyd edilir. Plenar sessiyada Azərbaycanla bağlı müzakirələr olmadığı üçün müəyyən addımlar atılmalıdır. Yəni hansısa deputat və ya deputatlar qrupu müzakirəyə sənəd çıxarmalıdır. Və ya həmməruzəçilərin hesabatı müzakirəyə çıxarılır. Bu iclasda belə təşəbbüslər olmadı. Düşünürəm ki, siyasi məhbusların azadlığa çıxması davam etməsə, QHT qanunvericiliyi dəyişməsə, qərar və sənədlərin qəbul edilməsi qaçılmaz olacaq".

❑ **Cavanşir ABBASLI**



## Neftin qiyməti 60 dollaradək bahalaşacaq

**"İlin sonuna qədər neftin qiyməti 60 dollaradək bahalaşacaq". Bunu SOCAR prezidenti Rövnəq Abdullayev deyib.**

"Neftin qiymətində artım dinamikası nümayiş olunur. Neftin qiyməti artıq dibi görüb. Bu qiymət hətta 50 dollar olduğu halda, bu, investisiyayönümlü qiymət deyil. Son iki il ərzində böyük neft şirkətləri yüzlərlə milyard dollarlıq investisiyaları, bir çox layihələrini saxlayıblar", - deyə R.Abdullayev bildirib.

Dövlət şirkətinin rəhbəri əlavə edib ki, neftin 1 barelinin investisiyayönümlü qiyməti 60-70 dollardır. "Mənim proqnozuma görə, ilin sonunadək neftin qiyməti 60 dollaradək bahalaşacaq. Lakin neft sənayesinə böyük investisiyaların yatırılması üçün bu da kifayət deyil", - deyə R.Abdullayev qeyd edib. (APA)



## Bakı Slavyan Universitetinə yeni rektor təyin olunub

**Bakı Slavyan Universitetinə yeni rektor təyin olunub. Yeni rektor indiyə qədər Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru olmuş Nurlana Əliyevadır. N.Əliyeva iyunun 23-də təhsil naziri Mikayıl Cabbarovun iştirakı ilə kollektivə təqdim edilib.**

Bu təyinata qədər Bakı Slavyan Univeristetinin rektoru Asif Hacıyev idi.

## Bakıda sosial evlərin tikintisi üçün torpaq ayrılır

**"Sosial evlərin tikintisi üçün Mənzil İnşaatı Dövlət Agentliyinə 50 hektar torpaq və 10 milyon manat pul ayrılıb". Bunu baş nazirin müavini Abid Şərifov deyib. (APA). "Söhbət 1-2 evdən deyil, məhəllələrdən, kvartallardan gedir. Başqa sözlə, sosial evlərin tikintisi uzunmüddətli prosesdir. Təkcə tender prosedurları 5-6 ay aparacaq", - deyə A.Şərifov bildirib.**

Baş nazirin müavini quruma ayrılan torpaqların harada yerləşdiyini deməyib: "Bu gün də quruma torpaqların ayrılması davam edir. Proses yekunlaşdıqdan sonra ətraflı məlumat veriləcək".



## Vahid Ələkbərov yenidən "LUKoil"in prezidenti seçildi

**Vahid Ələkbərov yenidən "LUKoil" şirkətinin prezidenti vəzifəsinə seçilib.**

"LUKoil"in səhmdarları illik toplantıda V. Ələkbərovun növbəti 5 il üçün şirkətin prezidenti vəzifəsinə seçilməsi haqqında qərar qəbul ediblər. (APA).

Qeyd edək ki, V. Ələkbərov 1950-ci ildə Bakıda doğulub. Azərbaycan Neft-Kimya İnstitutunu bitirib. 1993-cü ildən "LUKoil"a rəhbərlik edir. O, şirkətin səhmlərinin 22,96%-nə sahibdir.

## Azərbaycanda narkomanların rəsmi sayı açıqlanıb

**"Hazırda Azərbaycanda 592 nəfəri qadın olmaqla, 28 555 nəfər narkotik vasitə istifadəçisi kimi qeydiyyatdadır. 2015-ci ildə 2017 nəfər narkotik vasitə istifadəçisi kimi qeydiyyata alınıb".**

APA-nın məlumatına görə, bunu Gənclər və İdman Nazirliyinin Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası və Gənclər Fondu ilə birgə 26 iyun - Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü ilə əlaqədar keçirdiyi "Narkomaniya ilə mübarizədə gənclər təşkilatlarının rolu" mövzusunda konfransda Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin direktoru Telman Məmmədhəsənov söyləyib.

T. Məmmədhəsənov deyib ki, 2015-ci ildə 2833 nəfər narkomaniyadan könüllü müalicə üçün müraciət edib.


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 138 (6459) 24 iyun 2016

**Hazırda həbsdə olan yazıçı jurnalist, İranın Azərbaycanda səfiri olmuş Əfşar Süleymaninin keçmiş həyat yoldaşı Şəmsiyyə Bəylərqızı saxlanıldığı cəzaçəkmə müəssisəsindən redaksiyamıza məktub yollayıb. Ş.Bəylərqızı qeyd edir ki, həbsxanada ona qarşı ayrı-seçkilik edilir, süni problemlər yaradılır.**

# Səfirin keçmiş arvadı həbsxanadan məktub yazdı: "Mən terrorçu deyiləm"

## Şəmsiyyə Bəylərqızı: "İnformasiya blokadasında saxlanılıram, övladımın taleyindən narahatam..."

Məhkum xanım onun ədliyyə naziri Fikrət Məmmədova, Penitensiar Xidmətin rəisinə, ombudsman Elmira Süleymanovaya, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovaya, hüquq müdafiəçilərinə məktub yollamaq imkanlarının məhdud olduğunu bildirərək, üzləşdiyi haqsızlıqları mətbuat vasitəsilə diqqətə çatdırmaqdan başqa yolu olmadığını qeyd edib.

**Ş.Bəylərqızı yazır ki, iki ildir hüquqlarının tapdalanmasına dözüb və susub:** "Fikirləşirdim ki, düzələr. Amma vəziyyət daha da pisləşir. Mən burada üzləşdiklərimlə bağlı cəzaçəkmə müəssisəsinin rəisi Fariz Abdullayevə də yazılı müraciət etdim. Lakin heç bir reaksiya olmadı. Düzü, heç istəmədim də onun adı mətbuatda hallansın. Çünki burada rəis olduğu müddətdə faizə pul verilməsinin, qanunsuz telefon saxlanılmasının qarşısını alıb, adı mənfi işlərdə keçməyib. Amma mənim özümə münasibət dəyişməz olaraq qalır və bunun səbəbi mənə bəlli deyil. Mən bura gələn gündən üzərimdə olan bütün sənədləri götürüblər və indiyədək geri qaytarmayıblar. Bura gəldiyim ilk gündən haqsızlıqlara məruz qalıram; hamını 1 həftə, məni 2 həftə karantində saxladılar. Zorən heç bir ali təhsili, sanitar belə olmayan nəzarətçi ginekoloji yoxlama keçirdi..."

**Ş.Bəylərqizi qeyd edir ki, 5 qəzetə abunə olmasına baxmayaraq, illərdir informasiya blokadasında saxlanılır:** "Rəis müavini dedi ki, burada heç kimə qəzet verilmir. Amma 2015-ci ilin sonunda Xədicə İsmayıl bura gələndən ona qəzet verdilər. Mən bir daha abunə olduğum qəzetləri istədim, yenə vermədilər. Bir sıra ərzaq növlərini, mürəbbəni burada mənə verməyə qadağan ediblər. Amma bu ərzaqları "kabinetə işləyən" bir qrup məhkumun almasına icazə verilir. Burada ailəmin, oğlumun şəkillərini əlimdən alıb cırdılar, hansı ki, onlar ömrümün ən gözəl xatirələri idi... Biz burada məhkumuq, cəza çəkirik, amma təhqir oluna bilmərik. Lakin iki zabit bizi burada daim "harınlamış", "qudurmuş" və digər ifadələrlə təhqir edir. Mənə qeyri-rəsmi şəkildə görüş qadağası var. Azyaşlı oğlumdan və onu himayəyə verdiyim şəxsdən başqa kimsə ilə görüşməyə icazə verilmir, sanki mən terrorçuyam. Amma mənim istədiyim şəxslə görüş hüququm var".


Şəmsiyyə Bəylərqızı

**Ş.Bəylərqızı yazır ki, həbsindən 13 gün sonra anası dünyasını dəyişib və azyaşlı övladı küçələrdə qalıb:** "Çünki mənim bu həyatda anamdan başqa kimsəm yox idi... İndi oğlumu hər dəfə mənimlə görüşə gətirəndə saatlarla qapı ağzında qalır, görüş müddətini qısaldırlar. Görüş zamanı isə qapını arxadan bağlayırlar, ürəkləri istəyəndə açırlar. Zorla oğlumu tələm-tələsik alıb aparırlar və öz gözümün önündə qaldırıb yerə çırpırlar. Artıq onun psixikasında ciddi problemlər yaranıb, müalicə altındadır. Bütün bunlar ona görə baş verdi ki, mən etmədiyim cinayətə görə Əfşar Süleymaninin sifarişi əsasında həbsə alındım və haqq səsim eşidilmir. Əfv üçün müraciət də etdim, nəzərə alınmadı. İndi bir Azərbaycan vətəndaşı küçələrdə taleyin ümidinə qalıb".

**Ş.Bəylərqızı saxlanıldıqları otağa yay aylarında normal sərinləşdirici qoyulmadığını qeyd edir:** "Burada 500-ə yaxın məhkum var, 2 tibb bacısı və bir həkimin ümidinə qalmışıq. Nə terapevt, nə ginekoloq, nə də gecə növbə həkimi var. Gözəllik salonundan isə biz ürəyimiz istəyən və lazım olan zaman deyil, yalnız görüşə gedəndə istifadə edə bilərik. Fendən istifadəyə icazə verilmir. Rəhbərliyin əlaltısı olanlar isə buradan hər gün yararlana bilir. Mən səlahiyyətli şəxslərdən iki məsələni xahiş edirəm: oğlumla mənim təmaslarıma normal şərait yaradılsın, üzləşdiyim haqsızlıqlara son qoyulsun. Mən terrorçu deyiləm".

❑ M.MAHRIZLI



## Abuzər Cəfərova 5 il həbs cəzası verildi

**İyunun 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən jurnalist Abuzər Cəfərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Əfqan Hacıyev sədrlik edib. Prosesdə hökm oxunub. Hökmə görə, A.Cəfərov 5 il müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, Abuzər Cəfərov məhkəmədəki ifadəsində heç kimə qarşı dələduzluq etmədiyini bildirib.

Qeyd edək ki, jurnalist Abuzər Cəfərov ötən il Şamaxıda tutulub. Onun barəsində 7-8 nəfər şikayət edib. Abuzər Cəfərov həmin şəxslərdən işə düzəltmək adı ilə pul alaraq qaytarmayıb.

Ona qarşı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi açılıb. Həbs olunarkən onda 20 ədəd saxta vəsiqə də aşkar edilib.

A.Cəfərov "Siyasi məhbuslarsız Azərbaycan" İctimai Alyansı ilə əməkdaşlıq edib.

O bundan qabaq da məhbusluq həyatı yaşayıb.

# Ali Məhkəmə ədalətli femida rolunda-nə baş verir?



**Bu ilin martından başlayaraq, Ali Məhkəmə siyasi məhbuslarla bağlı hər kəsi təəccübləndirəcək önəmli qərarlar qəbul edir. Xüsusilə bu proses mayın sonlarından etibarən daha da sürətlənib.**

Əvvəlcə martın 28-də baş prokuror Zakir Qaralovun protesti əsasında hüquq müdafiəçisi İntiqam Əliyevi azadlığa buraxan bu instansiya qurumu ard-arda gözlənilməyən qərarlar verdi. Mayın 24-də Müsavat başqanının müavini Fərəc Kərimlinin cəzası 6 il yarımdan 3 ilə qədər azaldıldı. Ertəsi gün araşdırmaçı jurnalist Xədicə İsmayıl azadlığa buraxıldı. Son olaraq da Ali Məhkəmə AXCP gənci Elvin Abdullayev barədə müsbət qərar verib. İyunun 22-də cəbhəçi gəncin 6 illik cəzası 2 il yarıma endirilib.

Artıq iş o yerə çatıb ki, Ali Məhkəməyə müraciət edən istənilən siyasi məhbusun azadlığa buraxılacağına olan inam onun həbsdə saxlanılacağına olan ümidsizlikdən qat-qat yüksəkdir. Ali qurumun ədalətli femida rolunda çıxış etdiyini düşünmək də olar.

Qeyd edək ki, siyasi məhbuslarla bağlı bu tipli qərarları əvvəl Apelyasiya Məhkəməsi yerinə yetirirdi. Misal olaraq, Leyla və Arif Yunusların, eləcə


**Əsabəli Mustafayev:** "Məhkəmənin mahiyyətində heç bir dəyişiklik yoxdur, verilən tapşırıqların mahiyyətində dəyişiklik var"


**Mirvari Qəhrəmanlı:** "Ali Məhkəmə vasitəsilə gedən proseslər..."

də jurnalist Rauf Mirqədirovun apelyasiya şikayətləri əsasında azad olunduqlarını göstərə bilərik. Amma sonradan hər şey Ali Məhkəmənin əlində cəmləşdi.

Çoxları hesab edir ki, Ali Məhkəmənin son qərarlarında siyasi sifarişlər var. Yəni hakimiyyət tərəfdən. Çünki vaxtilə hökm qərarlarını qüvvədə saxladığı siyasi məhbusları artıq ali qurum azad edir. Avropa Məhkəməsinə Azərbaycandan edilən şikayətlərin də Ali Məhkəmənin xəttini dəyişməsinə səbəb olduğunu düşünənlər var. Hakimiyyətin bu instansiya qurumu vasitəsilə Azərbaycanda siyasi məhbuslar məsələsini tamamən həll etmək xətti götürdüyünü də ehtimal etmək olar. Çünki bütün siyasi məhbuslar əfvlə azad oluna bilməzlər. Ölkə iqtidarının heç şübhəsiz ki, Azərbaycan məhkəmələrinin ədalətinə olan şübhəni Ali Məhkəmənin timsalında aradan götürmək istədiyi də ola bilər.

**Siyasi məhbusların hüquqlarını qoruyan tanınmış vəkil Əsabəli Mustafayev bildirdi ki, Ali Məhkəmənin əsl üzü dəyişməyib:** "Azərbaycandakı bütün instansiya məhkəmələrinin əsl üzləri dəyişməyib. Burada əsas siyasi sifariş məsələsi var. Əvvəl sifariş olur ki, filankəsi tutun, bu qədər iş verin. Sadəcə, məqam yetişəndə, yəni kimlərinsə azad olunması lazım gəldikdə, cəza ya dəyişir, ya da həmin şəxs azad olunur. Bu, Apelyasiya və Ali məhkəmələrdə ola bilər. İş hansı instansiya mərhələsindədirsə, o qurum vasitəsilə həll olunur".

**Vəkil Ali Məhkəməyə müraciət edən REAL sədri İlqar Məmmədovun da azad ediləbiləcəyinin anonsunu verdi:** "Ali Məhkəmənin onu da azad etməsi mümkündür. Amma əvvəlcədən nəsə demək çətindir. Çünki İlqar Məmmədovun azad edilməsini biz Şəki Apelyasiya Məhkəməsindən gözləyirdik. Lakin naməlum səbəblərdən bu olmadı. İndi mümkündür ki, Ali Məhkəmədə bu qərar verilsin. Siyasilər barəsində bu cür qərarların Ali Məhkəmə tərəfindən verilməsində hakimiyyət də maraqlıdır. Çünki siyasilər barəsində bu cür qərarlar veriləndə beynəlxalq aləmə tez yayılır. Nəticədə əfv, amnistiyaya ehtiyac qalmır. Çünki bunlar uzunmüddətli tədbirlərdir. İntiqam Əliyev barəsində fevralda Ali Məhkəmənin iclasında qərar qəbul edildi və onun hökmü qüvvədə saxlanıldı. Amma bir aydan sonra hökumətə lazım oldu ki, İntiqam müəllim azad olunsun. O zaman Ali Məhkəməyə göstəriş verildi və onlar da istənilən qərarı verdilər. Yəni məhkəmənin mahiyyətində heç bir dəyişiklik yoxdur. Sadəcə, verilən tapşırıqların mahiyyətində dəyişiklik var".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı siyasi qərarlarda Azərbaycan məhkəmələrinin müstəqil olmadığını bildirdi:** "Beynəlxalq təşkilatlar siyasi məhbusların azadlığından daha çox Azərbaycanda məhkəmələrin müstəqilliyini tələb etməlidirlər. Məhkəmə özünün verdiyi qərarı ikinci dəfə dəyişməyə məcbur olur. Nəticədə məhkəmələrin nüfuzu getdikcə düşür. Ali Məhkəmə vasitəsilə hazırda gedən proseslər hakimiyyətin siyasətinin dəyişdiyini göstərir. Bunu iqtidarın yumşalması kimi qəbul etmək olmaz. Sadəcə, düzgün siyasət olduğunu düşünmək olar. Siyasilərlə bağlı yeni məhkəmələrin keçirilməsi hakimiyyətin siyasi seçiminin dəyişdiyini də sübut edir".

❑ Cavanşir ABBASLI

**Roma papası Fransiskin bu gün Ermənistana səfəri başlayır. Səfər çərçivəsində Papa Ermənistan prezidenti Serj Sərkisyan, ermənilərin katolikosu II Qaregin və digər rəsmi şəxslərlə, habelə diplomatik korpus nümayəndələri ilə görüşəcək. Səfər proqramında "erməni soyqırımı qurbanları"nın xatirə kompleksinə ziyarət də var. II Qaregin və Papanın birgə bəyannamə imzalayacağı gözlənilir.**

# Papa bu gün İrəvana gəlir - "erməni sevgisinin" səbəbi nə?

## Hikmət Hacızadə: "Roma papası hər yerə burnunu soxur"



Roma papasının planlaşdırılan səfəri Azərbaycanda etiraz doğurub. Doğrudur, bu cür səfərlər hər bir ölkənin daxili işi sayılır. Amma Azərbaycanla Vatikan arasında son illərdə yaxın əlaqələr yaranıb. Ölkənin birinci xanımı Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu son illərdə Vatikan və Romada ən azı altı layihə üçün yardım edib. Bu yardımlara baxmayaraq, Papanın "erməni sevgisi" azalmır. Bir il öncə "erməni soyqırımı" ifadəsini işlədən Fransisk indi də təcavüzkar ölkəyə səfər edəcək, hətta qondarma "erməni soyqırımı" adı altında ucaldılan abidəni ziyarət edəcək. Heç şübhəsiz ki, bütün bunların kökündə xristian təəssübkeşliyi dayanır. Ekspertlər bildirirlər ki, Azərbaycan tərəfi artıq bu məsələdə susmamalıdır. Xarici İşlər Nazirliyi səviyyəsində məsələyə mövqe bildirilməsi vurğulanır. Türkiyənin də burada susqun mövqe sərgiləməməsinin vacibliyi qeyd olunur.

XİN-in məsələ ilə bağlı mövqeyini almaq mümkün olmadı.

**Politoloq Hikmət Hacızadə Roma papasının bu addımının Azərbaycan və Türkiyəyə qarşı hörmətsizlik olduğunu qeyd etdi:** "Bu, mövqeyimizi saymamaqdır. Xarici İşlər Nazirliyi izah notası yazmalıdır. Papaya açıq məktub yazsalar, nəticəsi pis olmaz. Burada təkcə xristian təəssübkeşliyi yoxdur. Belə baxanda Roma papası hər yerə burnunu soxur. Hesab edirəm ki, burada terminoloji problem var. O zaman Türkiyədə vətəndaş müharibəsi gedirdi, dinc əhali iki tərəfdən də əziyyət çəkirdi. Ölənlər oldu, bunu heç kəs inkar etmir. Bu məsələni türk hökuməti də qəbul edir. Bir il əvvəl Rəcəb Tayyib Ərdoğan onların ailələrinə başsağlığı vermişdi. Bir anlayış da var, bu, genosid adlanır. Bu tamam başqa şeydir. Vətəndaş müharibəsində həlak olan yerli sakinlər tamam başqadır. Genosid o deməkdir ki, günahsız insanları heç bir səbəb olmadan qırırlar. Vətəndaş müharibəsi hər bir ölkədə olub və əhali qırılıb. Papa başda olmaqla, bəzi şəxslər deyirlər ki, əhali qırılıb, doğrudur, bu belə olub. Ərdoğan bunu boynuna alaraq başsağlığı verdi. Amma bu genosid deyil. Əsas çətinlik budur. Papadan soruşsalar ki, Ermənistana niyə getmişdin, ziyarət etdin. Deyəcək ki, qırılan camaatı ziyarət etmişəm. Oxucular da bunu başa düşməlidir. Ermənilər belə bicliklə məşğuldurlar".

## Fəzail Ağamalı: "Papaların daim ermənilərlə yaxın əlaqələri olub"

**İqtidaryönlü deputat Fəzail Ağamalı bildirdi ki, "erməni soyqırımı"nı tanıyanlardan biri də Roma papasıdır:** "Onlar hər zaman ermənilərin yanında olublar. Tarixə nəzər yetirsək, Roma papalarının daim ermənilərlə yaxın əlaqələri olub. Bu gün də davam edir. Bundan sonra da əminəm ki, bu ənənə davam edəcək. Burada xristian təəssübkeşliyi var. Necə ki, bizdə bəzi dövlətlərin müsəlman təəssübkeşliyi var. Hər kəsə nümunə ola biləcək Pakistan var. Hər zaman Azərbaycanı müdafiə edir. Yeganə ölkələrdən biridir ki, Ermənistanla heç bir diplomatik əlaqə qurmayıb. Roma papasının erməni sevgisinin qarşısını ala bilmərik. Azərbaycanla Roma arasında böyük işlər var. Ölkəmiz böyük yardımlar ayırır. Sadəcə, xristian təəssübkeşliyinə görə ermənilərin üzərinə getmirlər. Nə etsək də, bu mümkün olmayacaq. Bir müsəlman ölkəsi ilə ermənilərin münasibətləri gərginləşərsə, sizləri əmin edirəm ki, Roma papası yenə də onların yanında olacaq. Bu gün aparılan müharibələrə baxın, görəcəksiniz ki, bir xristian ölkəsində belə müharibə getmir. Xristian ölkələri müsəlmanlara qarşıdır".

**Deputat Azərbaycanın etdiyi yardımları dayandıra biləcəyi ilə bağlı fikirlərə də münasibət bildirdi:** "Yardımları dayandıra bilmərik. Əksinə, əlaqələri daha da möhkəmləndirməliyik. Ermənilər düşməndir, onlarla belə torpaqların danışıqlar yolu ilə geri qaytarmaq istəyirik. Bizimlə münasibətləri zəif olan ölkələrlə belə əlaqələr qurmağa çalışmalıyıq. Ölkə başçısının siyasəti də bundan ibarətdir. Dövlət səviyyəsində buna etiraz etməyi məqbul saymıram. Bu, müstəqil bir dövlətin daxili işlərinə qarışmaq olardı. Beynəlxalq hüquq normaları da buna normal yanaşmır. Hansısa bir səviyyədə etiraz ola bilər. Siyasi partiyalar, QHT-lər və digər səviyyələrdə etirazlar edilməlidir. Erməni vəhşiliklərini papanın diqqətinə çatdırmaq olar".

❑ Cavanşir ABBASLI

# Türkiyə və İsrail vasitəçilərsiz barışın bir addımlığında - Bakı da avantajda

## Ankara üzünü Moskvadan Təl-Əvivə çevirir - səbəb; böyük anlaşmaya sayılı günlər qaldı; diplomatik kanallar açılır; 6 illik fasilədən sonra bu gün ilk yəhudi rəsmisi Türkiyəyə gələcək...

**Artıq aydındır ki, Türkiyənin İsraillə münasibətləri Rusiyadan tez normallaşacaq. Ən son məlumatlara görə, Ankara və Təl-Əviv münasibətlərin tam qaydaya düşməsi üçün real və yekun xarakterli addımların atılmasına qərar veriblər.**



Belə ki, az öncə bu barədə yazan və rəsmi səviyyədə təkzib olunmayan Türkiyənin nüfuzlu "Hürriyet" qəzeti xəbər yayıb ki, 2010-cu ildə "Mavi Mərmərə" gəmisinin İsrail tərəfindən atəşə tutulması və 9 nəfərin ölümü ilə korlanan münasibətlərin yaxşılaşdırılması gələn ay imzalanması nəzərdə tutulan anlaşma sənədi ilə təmin olunacaq.

Məlumata görə, Türkiyə və İsrail rəsmiləri ilk olaraq iyunun 26-da - bazar günü artıq münasibətlərin normallaşdığını bəyan edəcək. İyul ayında isə iki ölkənin xarici işlər nazirliklərinin nümayəndələri tərəfindən imzalanacaq müqavilə ilə prosesin inkişafına yol açılacaq. Bunun ardınca tərəflər arasında səfir mübadiləsi ediləcək və digər mühüm addımlar atılacaq.

Bundan əvvəl isə Türkiyədən məlum insidentə görə üzr istəyən və "Mavi Mərmərə" qurbanlarına təzminat ödəməyə boyun ola İsrail Qəzza bölgəsi üçün tətbiq etdiyi blokadanı Türkiyə üçün götürəcək. İkitərəfli anlaşmaya uyğun olaraq, Türkiyə Qəzza bölgəsində xəstəxana inşa edəcək, Almaniya ilə birgə enerji stansiyası inşa edəcək. Bundan başqa, Türkiyə Qəzza əhalisinin istifadəsi üçün ərazidə dəniz suyunun təmizlənməsi zavodunu da quracaq.

Məlumatda o da bildirilir ki, bu prosesdə Türkiyəni xüsusi səfir Feridun Sinirlioğlu, İsraili isə baş nazir Benyamin Netanyahunun Türkiyə üzrə müşaviri Cozef Çexanover təmsil edəcək. Xatırladaq ki, tərəflər arasında Avropa şəhərlərinin birində indiyədək aparılmış danışıqlara məhz bu iki şəxs başçılıq edib. Maraqlıdır ki, böyük anlaşma prosesi heç bir vasitəçi olmadan yekunlaşmaq üzrədir.

***

İki dövlət arasında buzların sürətlə əridiyini həm də bu faktdan görmək olar: İsrailin Sionist Birlik Partiyasından millət vəkili Ksenia Svetlova bu gün Türkiyəyə səfər edəcək. Axar.az xəbər verir ki, millət vəkili "beyin mərkəzləri"nin təşkil etdiyi tədbirə qatılacaq. Onu bu tədbirdə Türkiyə Xarici İşlər Nazirliyinin rəsmisi Məsud Özcan müşayiət edəcək. Tədbir zamanı iki ölkə arasında münasibətlərin normallaşmasının bölgəyə təsiri, İsrail-Fələstin məsələsi müzakirə olunacaq.

Vurğulayaq ki, "Mavi Mərmərə" böhranından sonra ilk dəfə İsrail rəsmisi açıq şəkildə Türkiyəyə səfər edəcək. Çox güman ki, bu səfər və onun ertəsi günü elan ediləcək böyük anlaşma ilə aradakı son buzlar da ərimiş olacaq.

Diqqəti çəkən məqamlardan biri də İsrail-Türkiyə barışığının Ankaranın Rusiya ilə bağlı sərt açıqlama verməsi fonunda sürətlənməsidir. Srağagün Türkiyə prezidentinin mətbuat xidmətinin rəhbəri İbrahim Qalın birmənalı şəkildə bəyan edib ki, "Su-24" insidentinə görə Ankara nə Rusiyadan üzr istəyəcək, nə də ona təzminat ödəyəcək. Prezident sözçüsü onu da deyib ki, Rusiya ilə münasibətlərin pisləşməsinin Türkiyənin turizm sektoruna mənfi təsiri olsa da, Rusiyada da problemlər var. **"Cənab prezidentimiz Rusiya Günü münasibətilə dövlət ənənəsi üçün "məktub göndərək" dedi. Əlbəttə, orada bir mesaj var. Ancaq üzr istəmək və təzminat məsələsi olmayacaq"** - Qalın qeyd edib.

Doğrudan da həmin məktubda rəsmi Ankara 24 noyabr olayından sonra ilk dəfə Moskvaya ən yüksək səviyyədə yetərincə ciddi bir barış jesti eləmiş, əl uzatmışdı. Əfsus ki, Putin mesaja bir elə önəm vermədi və ona uzadılan əli sıxmadı, ənənəvi şərtlərini izhar eləməklə kifayətləndi. Bu fonda Türkiyə-İsrail barışığının sürətlənməsi diqqət çəkməklə yanaşı, Ankaranın Moskvaya qısa müddətdə ikinci ciddi mesajı təəssüratını yaradır.

***

İki ölkə arasında münasibətlərin tam qaydaya düşməsi pozitiv planda sözsüz ki, bölgəyə, o sırada Azərbaycanın yer aldığı Güney Qafqaza da təsirsiz ötüşməyəcək. Rəsmi Bakı ilə Təl-Əvivin münasibətləri onsuz da kifayət qədər yüksək səviyyədədir. Azərbaycanın lobbiçisi sayılan sabiq xarici işlər naziri Avidqor Libermanın bu yaxınlarda hökumətə qayıtması və müdafiə naziri postu tutması ilə ikitərəfli əlaqələr, xüsusən də hərbi sahədə əməkdaşlıq yəqin ki, daha yüksək səviyyəyə qalxacaq.

Yenə yeri gəlib qeyd edək ki, yəhudi dövlətinin Türkiyə ilə əlaqələrinin normal axara düşməsi Azərbaycan-İsrail münasibətlərinə məxsusi ton verə və yeni stimul yarada, ölkəmizin bölgədəki roluna əlavə avantaj, gücünə isə əlavə güc qazandırardı, Azərbaycanın özünə güvənini artırardı. İran-Ermənistan əlaqələri dərinləşərsə, prezident Həsən Ruhaninin İrəvan səfəri reallaşarsa, bu fonda həmçinin İsraildə Türkiyə kimi Azərbaycanın da səfirliyinin açılması gündəmə gələ bilər.

Ən önəmlisi isə Qarabağ məsələsində Azərbaycanın daha sanballı söz sahibliyi əldə eləməsi və siyasi qətiyyətliliyi üçün yeni əlverişli zəminin formalaşması ola bilər. Bakı-Təl-Əviv-Ankara "üçbucağı" heç şübhəsiz, Moskva-İrəvan-Tehran "üçbucağı"nın bölgədəki proseslərdə əvvəlki tək dominant olmasına imkan verməyəcək. Regionda Azərbaycan və Türkiyənin daha çox faydasına və marağında olacaq geosiyasi balans formalaşacaq.

❑ Siyasət şöbəsi

# "Biz xalqdan heç nəyi gizlətmirik"

## Bahar Muradova: "Hələ heç nə aydın deyil, parlament nəyi müzakirə edəcək?"

**Milli Məclisin sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova "Yeni Müsavat" qəzetinə geniş müsahibə verib. Xanım vitse-spiker Sankt-Peterburqdakı Qarabağ danışıqları və ondan sonra gözlənilənlər barədə fikirlərini bölüşüb, bir sıra vacib məsələlərə toxunub.**

***- Bahar xanım, prezidentlərin görüşündən öncə mətbuata demişdiniz ki, iyun görüşündə nəticə əldə olunmasa, Azərbaycan öz qəti sözünü deyəcək. Sankt-Peterburq görüşündən sonra nə deyə bilərsiniz? Sizdə olan indiki məlumatlar və qənaət nələri söyləməyə imkan verir?***

- Azərbaycanın mövqeyi hər zaman qəti və dəyişməz olub. Aprel hadisələri də bu mövqeni bir az da nəzərə çatdırmaq üçün yeni bir mühit formalaşdırdı. Əvvəllər Dağlıq Qarabağdan söz düşəndə onun artıq köhnəlmiş konflikt olduğunu düşünənlər yanıldıqlarını dərk etdilər. Təbii ki, aprel hadisələri bunun belə olmadığına və eləcə də Azərbaycanın qəti, ədalətli mövqeyinə diqqəti bir daha yönəltdi. Ona görə də bir çoxları vurğulayırdı ki, prezidentlərin qarşıdakı görüşləri substantiv, eyni zamanda konstruktiv əsasda olmalıdır. Əks təqdirdə, əlbəttə ki, Azərbaycan öz qəti sözünü deməyə məcbur olacaqdır. Əgər Vyana görüşündən, həm də sonuncu görüşdən sonra tərəflərin şifahi də olsa, birgə vurğuladığı məqamlara istinad etsək, söyləmək olar ki, danışıqlar konstruktiv əsasda keçib, ən əsası məsələnin həllinə yanaşmada yeni məqamlar ortaya çıxıb. O mənada ki, artıq danışıqlar prosesinin iştirakçıları Ermənistan, Azərbaycan, həmçinin vasitəçi tərəflər bu vəziyyəti daha da uzatmağın mümkünsüzlüyünü vurğulamaqla yanaşı, onu dəyişmək üçün yollar aramağa da ciddi səylər göstərirlər.

***- Amma elə Sankt-Peterburqdakı görüşün ardınca Serj Sərkisyan Azərbaycanın işğal altındakı ərazilərinə gəldi...***

- Amma bu dəfə mülki geyimdə gəldi.

***- Yəni bu fakt erməni prezidentin özünü daha rahat hiss etdiyi anlamını vermirmi?***

- Aprel hadisələri vaxtı Sərkisyan Qarabağa hərbi geyimdə gəlmişdi və ciddi hərbi ritorikadan istifadə etmişdi. Amma bu dəfə mülki geyimdə gəlməsi ən azı Rusiyadakı danışıqların ruhuna real həyatda sadiq olduğunu göstərmək üçün bir əlamət kimi qəbul edilə bilər. Hər halda, mən bunun bir o qədər vacib olmadığını qeyd etməklə yanaşı əhəmiyyətsiz də hesab etmirəm. Onun Dağlıq Qarabağı işğalda saxlayan ordunun Ali Baş Komandanı kimi Azərbaycan ərazisinə gəlməsi, çıxış yolları araması onu göstərir ki, bu torpaqlar Ermənistanın işğalı altındadır və "Dağlıq Qarabağ Respublikası" deyilən ifadə blefdir.

***- Ancaq qanunsuz olaraq başqa ölkənin ərazisinə gəlib...***

- Bəli, qanunsuz gəlib və qonşu ölkənin sərhəd bütövlüyünü pozub. Onun gəzdiyi sahələr hətta Dağlıq Qarabağın ərazisinə belə daxil deyil, ondan kənar ərazidir. Amma bununla belə, bu fakt ortada ola-ola danışıqlar gedirsə və prezidentlər bu durumdan çıxmaq, hər kəsin qanuni sərhədlərini müəyyən etmək üçün danışıqlar prosesində iştirak edirlərsə, deməli, bu danışıqların nəticələrinə də sadiq qalmaq və o danışıqlardan irəli gələn addımları atmaq lazımdır.

***- Hansısa ölkənin təmsilçisi icazəsiz Qarabağa gələndə adı "qara siyahı"ya salınır. Bəs Sərkisyanın Qarabağa gəlişinə niyə sükutla yanaşılır?***

**"Biz mövcudluğumuzun bütün dövründə düşmənçilik edə bilmərik. Elə etmək lazımdır ki, gələcək nəsillərə ağır yük qoyub getməyək"**

- Keçmişinə, Dağlıq Qarabağda baş verən proseslərdə cavabdehlik dərəcəsinə, beynəlxalq hüququn prinsiplərinə zidd fəaliyyətin təşkil olunmasındakı roluna baxmayaraq, bu gün o, danışıqlar tərəfinin təmsilçisi kimi çıxış edir. Əgər söylənildiyi kimi, hansısa razılaşmalar varsa və bu razılaşmaları reallığa çevirmək üçün ora səfər etmək lazım gəlirsə, buna bu kontekstdən yanaşmaq olar. Amma bu, özlüyündə Sərkisyanın və onun rəhbərlik etdiyi rejimin günahlarını azaltmır. Əlbəttə, gələcəkdə bu məsələ hüquqi müstəvidə araşdırılacaqsa, mütləq onun təşkilatçıları, iştirakçılarından və günahkarlarından biri kimi yəqin ki, o çıxış edəcək.

***- Prezident Administrasiyasının rəhbəri Novruz Məmmədov ilkin olaraq 5 rayonun azad olunması ilə bağlı müzakirələrin aparıldığını dedi, ancaq erməni tərəfdən təkzib gəldi. Bu barədə nə deyə bilərsiniz?***

- Mənim fərqli bir məlumatım yoxdur. Danışıqlar prosesinin detalları məxfi saxlandığı üçün, onu nə dərəcədə açıqlamaq olar, bu, danışıqlar prosesində iştirak edən şəxslərin dairəsinə məxsus bir məsələdir, nə bu, nə də digər tərəfin mövqelərini təsdiq, yaxud təkzib edəcək əlavə bir informasiyaya malik deyiləm. Ona görə də bu və ya digər açıqlamanı şərh etmək istəməzdim.

***- Bahar xanım, parlamentin vəziyyətlə bağlı ayrıca müzakirə aparmaq niyyəti varmı?***

- Real yanaşmaq lazımdır. Parlament indi nəyi müzakirə edəcək? Hələlik heç nə aydın deyil, biz nəyi müzakirə edək? Aydındır ki, başlıca müzakirə etdiyimiz məsələ bu problem və onun həlli yollarını aramaqdır. Əgər tərəflər bir görüşdə iştirak ediblərsə və ümumi fikir səsləndiriblərsə ki, danışıqlar normal, konstruktiv əsasda, gələcək görüşlərin keçirilməsinə şərait yaradan bir ruhda keçib, hesab edirəm ki, hər iki tərəfin həm ictimai-siyasi xadimləri, həm parlamentariləri, adi vətəndaşları belə, ümumi razılaşmanın əldə olunması üçün ona xələl gətirə biləcək hansısa fikirləri səsləndirməkdən də çəkinməlidirlər ki, öz prezidentlərinə mövqeləri yaxınlaşdırmaq üçün kömək etsinlər və məsələnin həlli üçün ciddi addımların atılması mümkün olsun. Şəxsən mənim yanaşmam belədir. Ona görə də indiki halda danışıqlar prosesinə xələl gətirə biləcək açıqlamalardan çəkinmək lazımdır. Parlamentdə də ciddi müzakirəyə gətirib çıxara biləcək əlavə bir məlumat, sənəd ortada yoxdur. Özü də burada şifahi razılaşmadan söhbət gedir, heç bir sənəd imzalanmayıb. Ona görə də imkan verək ki, qoy, danışıqlarda iştirak edən tərəflər mövqeləri daha artıq yaxınlaşdırsınlar və əgər nə vaxtsa məlum olacaqsa ki, parlamentlərin müzakirə edəcəyi konkret sənəd var, mövqeləri müəyyənləşdirmək lazımdır, onda, əlbəttə, parlament bu məsələyə münasibət bildirə bilər. İndiki halda mən buna lüzum görmürəm.

***- Sizdəki məlumatlar nədən ibarətdir, Rusiya bu dəfə səmimi şəkildə münaqişəni həll etmək istəyirmi?***

- Səmimiyyət ölçən bir cihaz olsaydı, yəqin ki, onun müqabilində bir çox həqiqətlər üzə çıxardı. (gülür) Ona görə də qəti söyləyə bilmərəm ki, bu, səmimiyyətdən, yoxsa regional maraqların qorunmasından irəli gəlir. Hər halda, inanmaq istərdik ki, hər iki ölkə ilə tarixi əlaqələri olan, həmsədr ölkələrdən biri kimi, regionda bu münaqişəyə daha yaxın, demək olar onun içərisində olan bir ölkə kimi məsələnin həllinə töhfəsini verməyə Rusiyanın daha çox imkanları var. Bu günə qədər Rusiyanın ünvanına bu və ya digər səbəbdən o qədər tənqidi fikirlər səslənib ki, hesab edirəm Rusiya kimi bir ölkənin öz imicini yaxşılaşdırmaq üçün də bu məsələdə həlledici rol oynamasına ciddi ehtiyac var. Qarabağ məsələsinin həlli bu imici dəyişməyə imkan verərdi.



**"İndiki halda danışıqlar prosesinə təsir göstərə biləcək açıqlamalardan çəkinmək lazımdır"**

***- Qərbin Qarabağ danışıqlarından kənarda qaldığı və ya Rusiya ilə Qarabağ anlaşmasına getdiyi barədə ziddiyyətli fikirlərdən hansına üstünlük verirsiniz?***

- Qərb ona görə kənarda qalır ki, o, coğrafi olaraq kənarda yerləşir. Konkret iki ölkədən, Fransa və ABŞ-dan söhbət gedirsə bu, bir faktdır ki, onlar bizə Rusiya qədər təsir imkanları baxımından və ərazicə yaxın deyillər. Elə onların özünün yanaşmasında da bu yaxınlıq hiss olunmur. Formal da olsa, nəticəsi olmasa da, Rusiyanın cəhdləri olduğu halda, digər tərəflər çox soyuqqanlı və "təmkinli" hərəkət edirlər, situasiyaya daha çox dözümlü yanaşırlar. O baxımdan müəyyən fərqlər hiss olunur.

***- Almaniya kansleri Angela Merkel isə deyir Rusiya açar rolunu oynaya bilər...***

- Doğrudur, Almaniya kansleri deyir. Amma bu, bir çoxlarının fikridir. Üzbəüz görüşlərdə bir çox ölkələrin nümayəndələri, beynəlxalq qurumların rəsmiləri bizə bu fikirləri deyirlər ki, Rusiya burada daha çox rol oynaya bilər. Əlbəttə ki, məsələnin əhəmiyyəti ondadır ki, digər oyunçular Rusiyaya burada əhəmiyyətli rol oynamağa imkan verəcəklərmi, bu, bir rəqabət yarışına çevrilməyəcək ki? İndiyə kimi vasitəçilik prosesində biz bu rəqabəti hiss etmişik. Mən heç istəməzdim ki, indiki halda yenə bu rəqabət meylləri meydana çıxsın. Amma ABŞ səfirinin açıqlamasını oxudum. Təbii ki, o, təmsil etdiyi ölkənin mövqeyini açıqlayır. O deyir ki, Sank-Peterburqda keçirilən görüş bundan əvvəl keçirilən görüşlərin davamıdır. Arzu edək ki, bundan sonra keçiriləcək görüşlər də kimin təşkil etməsindən asılı olmayaraq, biri digərinin davamı olsun və əldə olunan razılaşmaları pozmağa yox, möhkəmləndirməyə xidmət etsin. Onda, əlbəttə, biz deyə bilərik ki, onların arasındakı əlaqənin mahiyyəti nədən ibarətdir, rəqabətəmi əsaslanır, əməkdaşlığamı? Amma bu da bir faktdır ki, rəqabətə əsaslanan fəaliyyətlə bu məsələni yoluna qoymaq mümkün deyil. Vasitəçilərin hər biri istəyirsə ki, məsələ həll olunsun və danışıqlar prosesindən yalnız öz dividentlərini güdmürlərsə, sonda müəyyən bir konstruktiv əməkdaşlıq ortaya qoymalıdırlar. Hesab edirəm ki, üç həmsədr ölkənin arasındakı əməkdaşlığın özündən çox şey asılıdır.

***- Bəzi erməni ekspertləri çox narahatdırlar. Azərbaycanın Rusiya ilə anlaşdığını, Qarabağın geri qaytarılacağını deyirlər. Bu iddialarda həqiqət payı nə qədərdir?***

- Təbii ki, qonşu ölkədə siyasi analitiklər, ekspertlər, rəsmilər müəyyən fikirlər səsləndirir, proqnozlar verirlər. Amma yuxarıda sizin söylədiyiniz "səmimiyyət" məsələsi indi meydana çıxır. Bir qayda olaraq sözlə əməl arasındakı uyğunsuzluq burada daha çox söhbət mövzusudur. Amma arzulayaq ki, Ermənistan tərəfi aprel hadisələrindən ciddi nəticə çıxarsın. Çünki nə qədər ki, bu xalqlar mövcuddur, o qədər də qonşu olacağıq və əvvəl-axır bu münasibətlər normal məcraya düşməlidir. Biz mövcudluğumuzun bütün dövründə düşmənçilik edə bilmərik. Bu, nə regiona, nə də dünyaya fayda verən münasibət deyil. Elə etmək lazımdır ki, biz gələcək nəsillərə ağır yük qoyub getməyək. Hesab edirəm ki, qarşı tərəf də bunu düşünür və aprel hadisələrində verilən itkilərə görə, əlbəttə, narahatlıqları var və narahat olmağa da dəyər.

***- Bu ilin axırına qədər hansısa rayonların azad olunmasına başlanıla bilərmi?***

- Məncə, məsələnin bu şəkildə qoyulması düzgün deyil. Sosial şəbəkələrlə mətbuat orqanlarında ən müxtəlif informasiyalar yayılır və "2, 3, yaxud 5 rayon azad olunacaq", ya da "blefdir, heç nə olmayacaq" kimi fikirlər səslənir. Hazırda hər iki ölkədə cəmiyyətlərin, insanların, mətbuat orqanlarının da üzərinə böyük məsuliyyət düşür. Hesab edirəm ki, danışıq tərəfləri mövqelərini öz xalqına lazım gəldiyi anda anlatmalı və bütün informasiya təminatını da məhz o mövqelərə uyğun qurmalıdır. Azərbaycan tərəfdə belə bir problem yoxdur, çünki biz xalqdan heç nəyi gizlətmirik. Nə istədiyimizi, məqsədimizi açıq söyləyirik və fəaliyyətimizi də ona uyğun qururuq. Ermənistan tərəfindəki narahatlığın əsas səbəbi ondan ibarətdir ki, onlar bilirlər ki, əvvəl-axır bu torpaqları tərk etməlidirlər, bu ərazi onlara məxsus deyil.

***- Ancaq Dağlıq Qarabağda referendum keçirilməsi ehtimalı narahatlıq yaradır...***

- Burda da bir az səbirli olmaq və danışıqların nəticəsinə diqqət etmək lazımdır. Mən Azərbaycan tərəfinin öz mövqeyini heç zaman güzəştə getməyəcəyinə əminəm.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 138(6459) 24 iyun 2016



# Anadolu-Azərbaycan: eyni eyforiya, eyni depressiya

**Xalid KAZIMLI**

**Təkcə idmanda, futbolda olsaydı, nə vardı ki... Biz hər işdə beləyik. Soyuqqanlı olmağı, pafosu bir kənara qoymağı, təmkinli davranmağı, ölçüb-biçib qərar verməyi, taktika seçməyi bacarmırıq. Eyforiyaya tez qapılırıq, depressiyaya tez dalırıq. Vaxtından əvvəl ruhdan düşürük, vaxtından tez qızışırıq və sair və ilaxır.**

Əsrlərdir belədir. Regionumuzun suyundandır, havasındandır, ya nədəndir, bu cürdür. Hamı da bir tərəfə, iki qardaş ölkədə - Türkiyədə və Azərbaycanda yaşayan millətlər, aparıcı etnoslar olan türklər və onlarla iç-içə yaşayan digər xalqlar, hamısı bir xasiyyətdədir.

Əslində, kim nə deyir, desin, elə idman növləri var ki, onlarda uğurlu olmağın başlıca səbəbləri sırasında xalqların milli xüsusiyyətləri, mentaliteti, fikri-düşüncəsi, tarixi ənənə və təcrübələri, hətta fiziki göstəriciləri ilə birbaşa və önəmli rol oynayır.

Belə olmasaydı, 330 min əhalisi olan bir ölkə (İslandiya) 150 milyonluq ölkədən (Rusiya) üstün olmazdı. Deməli ki, islandlar daha atletik, daha dözümlü, daha bacarıqlı və hazırlıqlıdırlar.

Çini, Hindistanı götürək, ikisinin bir yerdə əhalisinin sayı 3 milyarda yaxındır, amma hərəsi 11 nəfər tapıb meydana çıxara, uğur qazana bilmir. Onların futbol təsərrüfatındakı hazırkı səviyyəsi Avropanın bir ortabab qəsəbəsində fəaliyyət göstərən futbol komandasının səviyyəsinə tən gəlir.

Hərçənd Çin son illər keçirilən olimpiadalarda ən çox qızıl və gümüş medal qazanan ölkədir, dünya miqyaslı idman ölkəsi sayılır. Yəni idmanın demək olar ki, bütün sahələri bu ölkədə yaxşı inkişaf edib, ən üst səviyyəyə çatıb, amma Çin futbolda autsayderdir və bunun xəcalətini çəkə-çəkə sürətlə futbol təsərrüfatını inkişaf etdirmək istəyir, dünyanın dörd bir yanından ən yaxşı oyunçuları transfer edərək vəziyyəti düzəltməyə çalışır.

Hindistan da onun kimi. Şahmatdan taekvondoya qədər bir çox idman sahələrində uğurlar qazanan hindistanlılar futbolu təxminən kos-kos səviyyəsində oynayırlar.

Əhaliləri etnik mənşə etibarilə bir-birinə yaxın olan Braziliya və Portuqaliya isə dünyada futbolu ən yaxşı oynayan ölkələrin sırasında yer alır. İspanlar da eləcə. İspandilli ölkələrin bir çoxunda futbol ciddi inkişaf edib.

Çox vaxt "futbol Böyük Britaniyada icad olunub" deyirlər. "Avro-2016" sübut etdi ki, gerçəkdən də elədir. Budur, çempionatda mərhələ adlayan 16 ölkədən dördü (İngiltərə, Uels, Şimali İrlandiya və İrlandiya) Böyük Britaniyaya daxil olan ölkələrdir. Çempionatdan öncə onlardan üçü turnirin autsayderi sayılırdı, amma göstərdikləri oyunla sübut etdilər ki, Avropada (eləcə də dünyada) ən yaxşı futbol oynayanlardandırlar.

İndi gələk özümüzə, Türkiyə və Azərbaycana. Öncə onu deyək ki, bundan belə bu iki dövləti bir-birindən ayırmaq mümkün deyil. Arada nə qədər çəkişmə-dartışma, umu-küsü olacaqsa da, bu, təxminən "Ağdam-Şuşa davası" kimi bir şey olacaq. Türkiyənin uğuru uğurumuz, dərdi dərdimizdir. Bizim uğur və uğursuzluqlarımıza münasibətdə Türkiyə cəmiyyəti də elə düşünür. Kimsə buna nə dodaq büzsün, nə etiraz etməyə qalxsın. Belədir. Ortalıqdakı bəzi söz-söhbətlər isə boş şeydir.

Gördüyünüz kimi, Türkiyə və Azərbaycanın futbol oynamağı da aşağı-yuxarı eynidir. Hələlik biz müəyyən obyektiv və subyektiv səbəblərdən böyük çempionatların final mərhələsinə vəsiqə qazana bilmirik. Vəsiqə qazanmış Türkiyənin də oynadığı oyunu, düşdüyü vəziyyəti gördük. Zatən, bu milli komanda "Avro-2016"-ya vəsiqəni son oyunda, başqa milli komandaların uğursuzluğuna ümid edə-edə qazanmışdı. Həmin ümidin eynisi srağagün də yaranmışdı, ancaq öz taleyini başqalarının heç-heçə edəcəyi variantına bağlayan milli komandanın bəxti bu dəfə gətirmədi.

Kollektiv oyunlarda bacarıqsızlıq türkiyəli idmançıların da problemidir, Azərbaycan idmançılarının da. Bir qələbədən sonra ərş-gürşlə əlləşmək onların da mərəzidir, bizim də. Böyük hədəfləri bir kənara qoyub, xırda hədəflərə kilidlənmək, minimal məqsədlər uğrunda mübarizə aparmaq bizə də xasdır, onlara da.

Bunlar isə anormaldır. Öndə olanların təcrübəsini öyrənmək, uğur hekayələrini bilmək, hər işdə strategiyanı və taktikanı dürüst müəyyən etmək lazımdır.

Fakt qarşısında qalandan sonra "İtaliya İrlandiyaya niyə uduzdu", "Almaniya qondarma "genosid"i niyə tanıdı", "Rusiya Ermənistana niyə qahmar çıxdı", "Fransa nədən bizə qarşıdır" deyə gileylənməyin heç nəyə faydası yoxdur. Sən güclü, dürüst, qətiyyətli ol, qoy kim nə olursa-olsun, necə istəyir, elə etsin.

# Cahangir Hacıyevlə maliyyə nazirinin savaşı haqda şok detallar

## Mərkəzi Bankın rəhbər vəzifələrində çalışmış Əkrəm Həsənov: "Beynəlxalq Bank 2005-ci ildən Eldar Mahmudovun patronajlığı altına keçmişdi"

**Beynəlxalq Bankın sabiq sədri, hazırda həbsdə olan Cahangir Hacıyevin vəkili Aqil Layıcovun "Yeni Müsavat"a müsahibəsində dilə gətirdiyi həqiqətlər diqqət çəkir. Vəkilin söylədiklərindən belə anlaşılır ki, Cahangir Hacıyevin bu gün həbsdə olmasında Maliyyə Nazirliyinin rəhbərliyi günahkardır.**

*A.Layıcov nazirliyin rəhbər şəxslərini Beynəlxalq Bankın uğurlarına, xüsusən "Ficht", "Standard and Poor", "Moody's İnternational" beynəlxalq reytinq təşkilatlarının qiymətləndirmələrində Maliyyə Nazirliyindən önə çıxmasını həzm edə bilməməkdə, qısqanclıqda suçlayıb. Bildirib ki, Maliyyə Nazirliyi rəhbərliyi Beynəlxalq Bankla əlaqəli ölkə rəhbərliyinə doğru olmayan məlumatlar verib və nəticə etibarı ilə bu gün bank ağır duruma düşüb, müvəkkili həbs edilib.*

*Vəkilin fikirlərinə vaxtilə Mərkəzi Bankda, "Bank VTB"də rəhbər vəzifələrdə çalışmış, hazırda "Antikollektor" şirkətinin rəhbəri olan Əkrəm Həsənovun münasibətini öyrəndik. Ə.Həsənov deyir ki, dövlət orqanları arasında qısqanclıq, gizli mübarizənin olması sirr deyil:*

- Ara-sıra belə mübarizələr açığa çıxır. Beynəlxalq Bankla Maliyyə Nazirliyi, Mərkəzi Bank arasında da həmişə ciddi ziddiyyətlər olub. Mərkəzi Bankda çalışdığım 5 il ərzində bu mübarizənin təzahürlərini daim görmüşəm.

***- Detallarını aça bilərsiz?***

- Mərkəzi Bank illərlə Beynəlxalq Bankı ölkədə fəaliyyətdə olan digər bankları yoxladığı kimi yoxlaya bilmirdi. Çünki Cahangir Hacıyevin böyük nüfuzu, gücü vardı. Ona görə də Beynəlxalq Bank Mərkəzi Bankın göstərişləri, qanunlar və normalarla hesablaşmırdı. Beynəlxalq Bank faktiki olaraq bank nəzarətini həyata keçirən orqanı saymırdı. Hətta Mərkəzi Bankla Beynəlxalq Bank arasında məhkəmə çəkişməsi də olmuşdu. Əgər eyni addımları istənilən digər bank atsaydı, Mərkəzi Bank həmin bankın başından vurardı. Beynəlxalq Bankın Maliyyə Nazirliyinə qarşı da münasibəti fərqli deyildi. Beynəlxalq Bankın rəhbərliyi ilə bacarmırdılar.

***- Niyə görə bacarmırdılar? Cahangir Hacıyev niyə bu qədər güclü idi?***

- Ölkənin ən böyük bankını idarə edirdi. Əlində güclü maliyyə vəsaiti vardı. Digər dövlət orqanları ilə güclü əlaqələr qura bilmişdi. Sonra da bəllidir ki, Eldar Mahmudovla qohum oldular. Bu onu bir qədər də gücləndirdi. Beynəlxalq Bank dövlət orqanları ilə münasibətdə özünü elə dövlət orqanı kimi aparırdı. Mərkəzi Bank digər bankların filiallarını bağlayanda, cərimələyəndə, lisenziyalarını geri alanda Beynəlxalq Bankda yoxlama apara, heç bir sanksiya tətbiq edə bilmirdi. Beynəlxalq Bankın filial rəhbərlərini belə illik attestasiyadan keçirə bilmirdilər. Məcbur olub yazırdılar ki, attestasiyadan keçdilər. Əgər söhbət qısqanclıqdan gedirsə, bu, adamların bir-birinə qarşı etirazı ola bilər. Amma hesab edirəm ki, günahın böyük hissəsi Cahangir Hacıyevdədir.

***- Cahangir Hacıyevin Mərkəzi Bankın sədri olacağı haqda məlumatlar da belə bir qısqanclığın ortaya çıxmasına səbəb ola bilərdimi?***

- Bankirlərin arasında söhbətlərimiz zamanı biliyi, savadı olmayanı Cahangir Hacıyev kimi biri ilə əvəzlənməsinin düzgün olmadığını demişəm. Vaxtilə "Bank VTB"nin sədrinin 1-ci müavini çalışdığım dövrdə "AzMeCo" Metanol Zavodunun rəhbəri Nizami Piriyev gəlib bankdan 20 milyon kredit istədi. 2010-cu il idi və İdarə Heyəti sədrinin müavini kimi buna çox kəskin etiraz etdim, bildirdim ki, bu boş bir layihədir, sadəcə pulun yeyilməsinə hesablanıb. Amma nə oldu? Beynəlxalq Bank "Bank VTB"yə qarant dayandı və həmin 20 milyon Nizami Piriyevə verildi. Müqavilədə pulun 1 ilə qaytarılması nəzərdə tutulurdu. Təbii ki, həmin müddət bitəndən sonra pulu qaytarmadılar. Əvvəlcədən aydın idi ki, pulu Beynəlxalq Bank qaytaracaq və ödədi də. Mən Rusiya bankının Azərbaycandakı nümayəndəliyinin sədr müavini kimi görürdüm ki, «AzMeCo» dağılmış bir şeydir, bura pul vermək olmaz. Bəs sən, Beynəlxalq Bank, bunu görmürdün? Görürdünsə, bu boş layihəyə necə qarantiya verirdin? Deməyim odur ki, öz praktikamda Beynəlxalq Bankın yeyilib-dağıdılmasını görmüşəm. Mən bu olaydan sonra "Bank VTB"nin rəhbərliyindən getdim. İndi qısqanclıqdan söhbət düşəndə, mümkündür ki, belə hallar olub, amma ümumilikdə göz qabağında olan odur ki, Cahangir Hacıyev bankı dağıdırdı. Beynəlxalq Bankda bu hadisələr baş verəndən sonra Nizami Piriyevi tutdular. Amma ilk gündən bəlli idi ki, o pullar qayıtmayacaq. Azərbaycan xalqı gərək bilsin ki, Beynəlxalq Bankdan «AzMeCo»nun, Hacı İbrahim Nehrəmlinin götürdüyü pulların böyük hissəsi heç vaxt geri qayıtmayacaq. O pulları dağıdıblar. Bunu edən isə Cahangir Hacıyevdir.



**"Mərkəzi Bank və Maliyyə Nazirliyinin rəhbər işçiləri Cahangir Hacıyevin sağ-solunda əyləşdirilməlidir"**

***- Yəni Cahangir Hacıyev bunları özbaşına edib?***

- Əlbəttə ki, yox. Beynəlxalq Bank kimə tabe idi? Maliyyə Nazirliyinə. Maliyyə Nazirliyi əvvəllər də, indi də Beynəlxalq Bankın Müşahidə Şurasının sədridir. Bütün iri məbləğli maliyyə kreditlərinin verilməsinə Müşahidə Şurasının razılığı lazımdır. Bunu qanunlar tələb edir. Yaxşı, Cahangir Hacıyev krediti verir, bəs Maliyyə Nazirliyi hara baxır? Məsələnin başqa tərəfi də var. Əgər Beynəlxalq Bank Maliyyə Nazirliyinin tabeçiliyində olaraq iri məbləğli kreditlərin verilməsinə qol çəkməyə məcbur edirsə, bunun da bir bədəli olmalı idi. Bunun adını qısqanclıq da, saymamazlığın qarşılığı da qoymaq olar. Amma məsələnin bu tərəfi də var ki, Cahangir Hacıyevi Elman Rüstəmovla müqayisə etmək olmaz.

***- Niyə müqayisə etmək olmaz?***

- Bu gün gedib Mərkəzi Bankda da yoxlama aparsalar, oradan xeyli zir-zibil çıxacaq. Cahangir Hacıyev də eyni şeyləri edib. Amma Elman Rüstəmov formal olaraq tabe olduğu qurumla hesablaşıb.

***- Cahangir Hacıyev bu addımları atarkən savadına, biliyinə əsaslanıb, yaxud digər məqamlar var?***

- Son 10 ildə Eldar Mahmudova arxalanıb. Özbaşına olmayıb.

***- Axı Cahangir Hacıyev Eldar Mahmudovla 2012-ci ildə quda olub?***

- Yadınızdadırsa, 2005-ci ildə Hacı Məmmədov Cahangir Hacıyevin həyat yoldaşını oğurlamışdı. Zamirə Hacıyevanı girovluqdan azad edən kim olmuşdu? Əməliyyata kim rəhbərlik etmişdi? Eldar Mahmudov. Həmin dövrdən Beynəlxalq Bank Eldar Mahmudovun patronajlığı altına girmişdi. Bununla belə, Cahangir Hacıyev çox bilikli, öz sahəsini bilən adamdır. Onu Elman Rüstəmovla müqayisə etmək olmaz. Cahangir Hacıyev kifayət qədər peşəkar, öz maraqları uğrunda hər şeyə gedə bilən kadrdır. Onun Beynəlxalq Bankın rəhbərliyinə gəlməsi də təsadüfi deyildi. Beynəlxalq Bank çox böyük bankdır və orada vəzifəli şəxslərin çoxunun qohumları işləyir. Bankın o dövrdəki rəhbəri Fuad Axundovun bir səhvi onun kreslodan saldı. Cahangir Hacıyev orada işi qura bildi. Lakin sonradan pula hərislik, pulun gözü örtməsi o boyda bankın çökməsinə gətirib çıxardı. Amma buna görə təkcə Cahangir Hacıyevin cavabdeh olması fikrini bölüşmürəm. Bu gün onu ittiham edənlər, illərlə əməllərinə göz yumanların - Mərkəzi Bank və Maliyyə Nazirliyinin rəhbər işçiləri Cahangir Hacıyevin sağ-solunda əyləşdirilməli, onlardan da həmin əməllərə görə cavab istənilməlidir.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 138 (6459) 24 iyun 2016

**2015-ci il oktyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyində (MTN) baş tutan əməliyyat Eldar Mahmudovun nazir kreslosunu itirməsi, mərkəz, idarə və şöbələrinin bir sıra əməkdaşlarının istintaqa cəlb edilərək həbs olunmaları ilə nəticələndi. Hazırda ləğv edilmiş MTN-də baş verən qanunsuzluqlarla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi başlanıb. Baş Prokurorluğun rəsmi məlumatına görə, iş üzrə istintaqa 22 şəxs cəlb olunub. 1 nəfər axtarışda, 1 şəxs isə ev dustaqlığındadır. Maraqlıdır ki, rəsmi məlumatlarda iş üzrə istintaqa cəlb olunmuş şəxslərin kimliyi haqda məlumat verilmir.**



# Sabiq MTN generalları üçün həbsxanada xüsusi korpus tikilir

## Əsas səbəb budur ki, "dəmir barmaqlıq" arxasına salınanların xidmətlə əlaqəli əldə etdikləri informasiyalar azı 50 il aktuallığını saxlayır

Buna baxmayaraq, "Yeni Müsavat"ın əməkdaşı istintaqa cəlb edilənlərin tam siyahısını dəqiqləşdirə bilib. Hazırda Bakı İstintaq Təcridxanasında 4-ü general olmaqla, ümumilikdə 19 MTN-çi var. İstintaqa cəlb edilmiş daha bir general-mayor, MTN Əməliyyat-texniki idarəsinin sabiq rəisi Natəvan Mürvətova ev dustaqlığındadır. Eldar Mahmudovla badə yoldaşı olan, varlı sahibkarlar haqda məlumatlar ötürməklə onlara "torba tikilməsində" ad çıxaran "Akula Akif" ləqəbli Akif Mustafayev isə axtarışdadır.

İş üzrə ilk həbs olunanlardan biri, MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev isə rəsmi məlumatlara görə, Bakı İstintaq Təcridxanasında intihar edib.

**İş üzrə həbsdə olan MTN-çilərin siyahısını bir daha təqdim edirik:**

**1.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov;

**2.** MTN-in Monitorinq Mərkəzinin rəisi, general-mayor Teymur Quliyev;

**3.** MTN-in Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev;

**4.** MTN-in Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanov;

**Monitorinq Mərkəzinin əməkdaşları:**

**5.** Fərhad Atayev,

**6.** Anar Şirəliyev,

**7.** Eşqin Əliyev,

**8.** Elşad Əzizov;

**9.** Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi, polkovnik Fizuli Əliyev;

**10.** İstintaq Baş İdarəsinin rəis müavini, şöbə rəisi, polkovnik-leytenant Vüsal Ələkbərov;

**11.** MTN-in Baş Əks Kəşfiyyat İdarəsinin şöbə rəisi polkovnik Mirəziz Əsgərov;

**12.** MTN polkovniki Mehman Abdullayev;

**13.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi Akif Əliyev;

**14.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin baş əməliyyat müvəkkili Anar Hüseynov;

**15.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsindəki idarələrdən birinin rəisi Səlim Məmmədov;

**16.** Həmin idarənin işçisi Orxan Osmanov;

**17.** Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi Natiq Alıyev;

**18.** Əməliyyat-texniki idarənin şöbə rəisi Zaur Məmmədov;

**19.** MTN-in şöbələrindən birinin sabiq rəis müavini Azər Mehdiyev.

Baş Prokurorluğun "MTN işi" ilə bağlı yaydığı son məlumata görə, iş üzrə 130 epizod araşdırılır. MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərərçəkmiş şəxs qismində tanınıb. MTN-dən qovulanların isə sayı-hesabı yoxdur.

Bakı İstintaq Təcridxanasında (BİT) saxlanılan MTN generalları, polkovnikləri, kapitanları digər dustaqlardan da təcrid edilmiş şəkildə saxlanılırlar. Onlara münasibət də digər dustaqlardan bir qədər fərqlidir - pulla hüquqların gerçəkləşdirmək imkanları minimuma endirilib. Bu münasibəti MTN-çilərin şəxsi əlaqələrindən istifadə edərək istintaqa, zərərçəkənlərə təzyiq etmək imkanlarının qarşısını almağa yönəlib.

Belə xəbərlər də var ki, artıq MTN-çiləri barələrindəki ittihamedici hökmdən sonra da eyni vəziyyətdə saxlayacaqlar. Bunun üçün 9 saylı cəzaçəkmə müəssisəsində həbsdəki MTN-çilər üçün xüsusi korpus tikilir. Kriminal aləmdə "qırmızı zon" adlanan həmin cəzaçəkmə müəssisəsində xüsusi nəzarət altında, digər məhkumlardan təcrid olunmuş vəziyyətdə saxlayacaqlar. Bunun özəl səbəbləri var. Əsas səbəb budur ki, "dəmir barmaqlıq" arxasına salınan MTN-çilərin xidmətlə əlaqəli əldə etdikləri informasiyalar azı 50 il aktuallığını saxlayır. Həmin informasiyalar onlardan digər məhkumların ala bilməsi ehtimalı var.

Xatırladaq ki, MTN-çilərin əksəriyyətinə qarşı CM-in 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309.1(vəzifə səlahiyyətlərini aşma) və 302.2-ci(qanusnuz dinləmə) maddələri ilə ittiham irəli sürülüb. General A.Çovdarov isə 308.2 maddəsi ilə yanaşı Cinayət Məcəllənin 311.3.1 (rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə də ittiham irəli sürülüb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ermənilərin Papası



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**İyunun 24-də Roma Papası Fransisk Ermənistana gələcək. Ermənistan bu səfərə xüsusi hazırlaşıb, hətta Rusiyadan kilsə rəhbərləri Papa ilə görüş üçün işğalçı ölkəyə axışıb. Papanın gəlişi, nə deyəcəyi erməni mətbuatının baş mövzusudur.**

Hələ ki Papanın səfəröncəsi məktubundan danışılır. Fransisk "sülhün tənzimlənməsi yolunda ermənilərı ümidləndirmək"lə bağlı məqsədini izhar edib. Məktubu oxuyanda adam zənn edir ki, sanki əraziləri işğal altında olan, yüz minlərlə insanı qaçqın düşmüş ölkəyə xitab edilir.

Papa məktubunda "sizin füsunkar ölkəniz" deyə, vəsf etdiyi Ermənistanın Azərbaycana qarşı cinayətlərindən bu qədərmi xəbərsizdir? Papa məktubunda "Xalqınızın tarixi və başına gələn hadisələr məndə heyranlıq və kədər hissi oyadır"-yazıb.

Erməni xalqının başına hansı hadisələr gəlib ki, Papa heyran olub? Bəlkə Azərbaycanın tarixi ərazilərində özlərinə ölkə qurduqlarına görə onlara "heyran"lığını gizlədə bilmir? Yoxsa 31 Mart 1918-ci ildə ermənilərin yüz minlərlə Azərbaycan türkünü məhv etməsindən mütəəssir olub Papa həzrətləri? Bəlkə Xocalı soyqırımını törətmələridir ermənilərin "başına gələn hadisələr"? Dağlıq Qarabağı, ətrafındakı 7 rayonu işğal altında saxlayan ölkəyə bu bəlağətli sözləri ünvanlamaq bəşəri dəyərlərə tüpürmək deyilmi?

Nə olsun ki, Papa bu dəfə "soyqırım" deməyəcək. Elə "böyük fəlakət" də Türkiyəyə qarşı haqsızlıqdır. İzahata gərək yox. Onsuz da Papa keçən il 1915-ci il hadisələrini "XX əsrin ilk soyqırımı" adlandırıb. Roma Papasının bəyanatından sonra rəsmi Ankara Vatikandakı səfirini geri çağırmışdı. İndi Papanın yenidən "soyqırım" deyib-deməməsinin nə mənası? Papa konstitusiyasında və gerbində Türkiyənin ərazisinə iddiası əksini tapan, Azərbaycan torpaqlarını işğalda saxlayan bir ölkəni "birinci xristian dövləti" (?) adlandırır və bununla hər şeyi demiş olur. Papa olmamışdan əvvəl erməni təsirinin güclü olduğu Argentinada yaşayıb, bəlkə buna görədir?

Roma Papasının səfərindən iki gün əvvəl Ermənistanın prezidenti Sərkisyan qanunsuz olaraq Qarabağa gəldi. Normalda bütün dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar buna sərt təpki göstərməli, Papa isə İrəvan səfərini təxirə salmalı idi. Azərbaycan ərazisində özünün hərbi qərargahını toplayan işğalçı ölkənin rəhbəri ilə səmimi atmosferdə görüş keçirmək elə onun işğalçılığına haqq qazandırmaqdır!

Başqa ölkənin torpaqlarına qanunsuz səfər edən bir ölkənin başçısının əlini sıxmaq elə işğala xeyir-dua verilməsi anlamına gəlir. Papa Sərkisyanın əlini sıxacaq. O əli ki azərbaycanlıların qanına batıb. O əli ki elə son iki gündə Qarabağdakı terrorçulara uzanıb. Olmaya Papa aprel döyüşlərindəki uğursuzluqlardan sonra Qarabağ danışıqlarında mövqeləri zəifləyən Ermənistana dəstək olmağa gəlir?

Roma Papası tarixdə olmayan hadisələrə görə qoyulmuş abidəni ziyarət edəcək, ölməyən 1,5 milyon erməniyə görə dualarını səsləndirəcək və daha sonra Ağrı dağı istiqamətinə üzünü tutub göyərçin uçuracaq. Bu, əslində Türkiyəyə sülh mesajı vermək deyil, məqsəd başqadır. Rusiya XİN-in başçısı Sergey Lavrov da İrəvanda olarkən mobil telefonu ilə Ağrı dağının fotosunu çəkmişdi...

Özü də bu gün sülh göyərçinini Türkiyə tərəfə uçurmağa ehtiyac yoxdur, Türkiyə və Ermənistan müharibə şəraitində deyil ki. Papa doğrudan da sülhpərvərdirsə, o göyərçinləri Azərbaycan-Ermənistan sərhədində uçursun, nümayiş etdirsin ki, iki ölkə arasında qan tökülməsinə qarşıdır, ya Ermənistana Azərbaycan torpaqlarından çıxmaqla bağlı çağırış etsin.

Papa ədalət tərəfdarı olsa, tarixdə olmayanlara görə qoyulmuş abidəni ziyarət etməz, nəinki soyqırım, heç "böyük fəlakət" də deməzdi. Əksinə, 1992-ci ildə Ermənistanın törətdiyi Xocalı soyqırımını xatırladar və Qafqazda sülhün, əmin-amanlığın təmin olunması üçün işğalçı ölkəyə çağırış edərdi.

Milli Məclisin deputatı Elxan Süleymanov Ermənistan səfəri ərəfəsində Papaya tutarlı bir məktub yazıb. Heç olmasa Roma Papası Ermənistanın 2014-cü ilin iyunundan girov saxladığı Dilqəm Əsgərov və Şahbaz Quliyevin geri qaytarılmasına kömək edə bilərdi. Təbii ki, istəsəydi. Cəmi üç ay əvvəl Roma yaxınlığında yaşayan 12 miqrantın ayağını yuyub öpən Papanın Kəlbəcər qaçqınlarının ayağını yumasını istəmirik. Heç olmasa onların qollarından qandalları açaydı...



# Mötərizəni niyə bağlamadım

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən xəbər lentində prezidentin mətbuat xidməti rəhbərinin 3-cü dərəcəli "Vətənə xidmət medalı" ilə təltif olunmasını görəndə, açığı, öncə çox pis oldum. Ona görə yox ki, hörmətli Azər müəllim 2004-cü ildən bəri daşıdığı bu ağır, çətin, məsuliyyətli, şərəfli peşəni pis yerinə yetirir, bu medala layiq deyildir. Qətiyyən. Hətta daha yaxşı ordenlərə, medallara layiqdir, sadəcə, bizdə dövlətçilik elə qurulubdur ki, "Şöhrət" ordenini katibəsinin də tanımadığı tiplərə, "İstiqlal" ordenini müstəqilliyin əleyhinə səs verənlərə, "Şərəf" ordenini isə axırıncı şərəfsizlərə təqdim edirik. Kim "Vətənə xidmət" ordeni alırsa, deməli, yaxşı çalışıbdır.**

Azər müəllim isə hər həftə yerli jurnalistlər, ayda bir dəfə xarici jurnalistlər, hər üç aydan bir isə qalaktikalar arası kosmik gəmilər üçün cənab prezidentin mətbuat konfranslarını təşkil etməsi, bütün informasiya sorğularına ətraflı, detallı, tarixi sənədlərlə bərkidilmiş, rəsm əsərləri ilə süslənmiş, musiqili konvertlərə qoyularaq bəstələnmiş cavablar verməsiylə yadda qalmışdır. İnsan o dərəcədə peşəkardır ki, hətta jurnalistlər heç bir sorğu-sual göndərməyəndə də onlara cavab verir! Sanki bunu altıncı hissi, intuitiv aparatı vasitəsiylə başa düşür. Örnək üçün, dəfələrlə olub, yazı yazdığım yerdə məndə hansısa sual yarananda qəfildən ekranın küncündə Azər müəllimin danışan holoqramı peyda olub, "Bu cümləni elə yaz, bunu da belə yazsan başın ağrımaz" deyə peşəkar məsləhətlərini vermişdir.

Bəs mən niyə pis oldum? Bayram eləmək, tort almaq, şam yandırmaq yerinə? Yazım.

Səbəb sadəcə ondadır ki, son illərdə bu "filan dərəcəli filan işə görə 3-cü dərəcəli medalı" adətən cəbhə xəttində düşmən gülləsindən həlak olan əsgərlərimiz alırlar. Mən də qorxdum, elə bildim Azər müəllim, dilim-ağzım qurusun, hardasa vətənə xidmətin qızğın anlarında şəhid olubdur. Şükür, belə deyilmiş. Gələcəkdə bənzər problemlər yaranmasın deyə mən təklif edərdim cəbhədə həlak olanlarımıza 3-cü dərəcə medal yox, 4-cü, 5-ci, 6-cı dərəcə medallar verilsin. 3-cü dərəcə onlar üçün çoxdur, üstəlik, administrativ qarışıqlığa səbəb olur, dövlətçiliyimizi sarsıdırlar.

Ümumiyyətlə, bizdə söz azadlığına, şəffaflığa, xalqın informasiya almasına yüksək səviyyədə dövlət qayğısı vardır. Misal üçün, dünən elə başqa bir sərəncamla Mənzil İnşaatı Dövlət Agentliyinə mətbuat xidməti rəhbəri təyin olundu. Bu agentlik lap təzə yaradılıb, ortada nəinki bina, heç çertyoj yoxdur. Bir adam da bilmir ki, dövlət manatın öldüyü, neftin mələdiyi, Dünya Bankının, BVF-nin Yezidə dönüb bir damcı kredit vermək istəmədiyi yaxın illərimizdə bu mənzilləri necə qayıracaqdır. Ancaq hər halda əsas niyyətdir. Niyyətin hara - mənzil agentliyin ora. Atalarımız yaxşı demişdir.

Sözümün canı odur ki, gördüyünüz kimi, iş yoxdur, ancaq mətbuat xidməti vardır. Bu da bir daha mətbuata qayğının bariz təcəssümüdür. Yeri gəlmişkən, klaviaturada "r" və "t" hərflərinin yanaşı olmasına da hansısa sərəncamla son qoymağın vaxtı çatıbdır. Elə indicə mən az qala faciə yaşayırdım, mötərizədən əvvəlki cümlənin son hərfi səhvən "t" getmişdi, "təcəssümüdüt" yazmışdım. Adamın əli toxunur, belə bədxah mənzərə alınır. Sanki mən dövlət siyasətini bəyənməyib "...düt, düüt" yazmaq istəyirəm. Televizorda müəyyən sözləri efirə vermək istəməyəndə edilən kimi. Nəyə lazımdır bu cür klaviatura? Eyni şeyi "x" və "c" hərflərinin yanaşı olmasına aid etmək mümkündür, bu yaxında bir dostumuz hansısa tanımadığı qadına sosial şəbəkədə cavab yazarkən əli yanlış dəymiş, "xanım" əvəzinə "canım" getmişdi. Az qalmışdı biz növbəti ailə faciəsinin şahidi olaq.

Sosial şəbəkələr üzrə mətbuat xidməti yaratmağın da vaxtı çatmışdır, Əflatun müəllim düz deyir. Bayaq açdığım mötərizə açıq qalıb, istidir, ona görə bağlamıram, yazı bir az sərin olsun.

# ABŞ dövlət katibinin köməkçisi Bakıda

## Bridcet Brink İlham Əliyevin qəbulunda oldu; **Prezident:** "Azərbaycanla ABŞ arasında münasibətlər çox yaxşı səviyyədədir"

**İyunun 23-də prezident İlham Əliyev ABŞ dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Bridcet Brinki qəbul edib. İki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən dövlət başçısı ABŞ-a son səfərini və Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirakını məmnunluqla xatırlayıb.**

Prezident İlham Əliyev səfəri çərçivəsində ABŞ-ın vitse-prezidenti Co Bayden, dövlət katibi Con Kerri və ticarət naziri Penni Pritzker ilə çox səmərəli və mühüm müzakirələrin aparıldığı görüşlər zamanı ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi işinə sadiqliyin bir daha təsdiqləndiyini vurğulayıb. Dövlət başçısı ABŞ prezidenti Barak Obamaya Bakıda keçirilən XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgi və konfransının iştirakçılarına ünvanlanmış məktubuna və məktubda dostluq münasibətlərimizin və əməkdaşlığımızın həqiqi mahiyyətini əks etdirən müsbət fikirlərinə görə minnətdarlığını bildirib. ABŞ dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Bridcet Brinkin Azərbaycana ötənilki səfərini xatırlayan prezident İlham Əliyev həmin səfərin ölkələrimiz arasında əlaqələrin inkişafında müsbət dinamika baxımından önəmli məqam olduğunu qeyd edib.



Azərbaycanla ABŞ arasında əməkdaşlığın gündəliyinin çox geniş sahələri əhatə etdiyini deyən prezident İlham Əliyev ölkələrimizin təhlükəsizlik, enerji və regional inkişaf kimi bir sıra məsələlərlə bağlı birgə əməkdaşlıq həyata keçirdiyini vurğulayıb. Hazırda Azərbaycanla ABŞ arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən dövlət başçısı Birləşmiş Ştatların dövlət katibinin köməkçisinin müavini Bridcet Brinkin ölkəmizə səfərinin əlaqələrimizin uğurla inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əmin olduğunu bildirib.

Regiona səfəri çərçivəsində yenidən Azərbaycanda olmasından məmnunluğunu ifadə edən Bridcet Brink bildirib ki, səfərdə məqsəd ölkələrimiz arasında mövcud olan bütün sahələr üzrə tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirməkdir. Prezident İlham Əliyevin Vaşinqtona uğurlu səfərinə və keçirdiyi görüşlərə toxunan ABŞ dövlət katibinin köməkçisinin müavini özünün ölkəmizə ötən ilki səfərini də xatırlayıb. Bridcet Brink ölkələrimiz arasında davamlı əməkdaşlığın daha yüksək mərhələyə qaldırılması istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

Qonaq Bakıda keçirilmiş "Formula-1" Avropa Qran-pri yarışlarının uğurla başa çatması münasibətilə prezident İlham Əliyevi təbrik edib.(AzərTAc)

# Paşazadələrin şəriki məhkəmədə od püskürdü

# Şeyxin "Göy məscid" ətrafındakı mülk qalmaqalı - məhkəmə araşdırması

## Bakı Ağır Cinayətlər Məhkəməsində şahidlər dindirilir; **müttəhim Müğdət Həşimov:** "Obyektin 33 faizi Allahşükür Paşazadənin, 33 faizi Cavanşir Paşazadənin idi"; Hacı Mazan isə məhkəmədə ziddiyyətli ifadələr verdi

**Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə Allahşükür Paşazadənin qardaşı, deputat Cavanşir Paşazadənin və onların ailə üzvləri ilə şərik olmuş Müğdət Həşimovun işi üzrə məhkəmə prosesi keçirilir. M.Həşimova Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə) 178.3.2 (dələduzluq) və 213.1(vergidən yayınma) maddələri ilə ittiham elan olunub.**




M.Həşimov ittihamları qəbul etmir və Paşazadələrin sifarişi ilə həbsə atıldığını iddia edir. Son məhkəmə prosesində zərərçəkmiş qismində Paşazadələrin yaxın qohumu, Hacı Mazan kimi tanınan Ramazan Zeynalov dəvət olunub. Hakim Ramazan Zeynalovdan iyulun 6-da və 13-də keçirilən məhkəmə iclaslarına niyə gəlmədiyinin səbəbini soruşub. Hakimin bu sualından sonra R.Zeynalovun nümayəndəsi Siracəddin Kərimov vəsatət verib. O, vəsatətində məhkəmənin obyektivliyinə şübhələrinin olduğunu və tərkibə etiraz etdiklərini göstərib. Vəsatət baxılmamış saxlanılıb. Bundan sonra R.Zeynalov çıxış edib. M.Həşimov və vəkili R.Zeynalovun çıxışında göstərdikləri ilə ibtidai istintaqa verdiyi ifadələrin ziddiyyət təşkil etdiyini məhkəmənin diqqətinə çatdırıb. M.Həşimov və vəkilinin R.Zeynalova verdiyi dəqiqləşdirici suallara sonuncu konkret cavablar verməkdən yayınıb.

M.Həşimov məhkəmədə adıçəkilən "Medi Sina" klinikası haqda arayış verib. Bildirib ki, klinika 10 ay deputat Cavanşir Paşazadənin adına olan 1255 kv metrlik obyektdə fəaliyyət göstərib. Obyekt "Güllü dərə" deyilən yerdə - "Göy Məscid"in həyətində Ramazan Zeynalovun tikdirdiyi 20 mərtəbəli binanın 1-ci və 2-ci mərtəbələrində yerləşib. O, məhkəmənin diqqətinə çatdırıb ki, Ramazan Zeynalov da məhkəmə çıxışında obyektin 33 faizinin Cavanşir Paşazadənin, 33 faizinin Allahşükür Paşazadənin olduğunu etiraf edib. R.Zeynalov deyib ki, 2013-cü ildə oranı klinika kimi işlətməyə başlayandan o, öz payına düşən 33 faizi Cavanşir Paşazadəyə verib və bu biznesdə iştirak etməyib. Şübhələnib ki, bu işin axırı yaxşı olmayacaq. M.Həşimovun və R.Zeynalovun məhkəmədəki çıxışlarından məlum olub ki, "Aygün C" MMC-nin təsisçiləri Paşazadə Pakizə Qəmbər qızı, Paşazadə Məhəmməd Allahşükür oğlu, Əliyeva Kəmalə Cavanşir qızı, Əliyev Atiq İlyas oğlu, R.Zeynalovun iki ailə üzvü də həmin şirkətdə təsisçi olub. Sadəcə olaraq, birgə fəaliyyət üçün zəruri olan məbləğin M.Həşimova verilməsi zamanı R.Zeynalov öz ailə üzvlərinin iştirakına razı olmayıb. Deyib ki, Müğdət Həşimovla özünüz danışın, mən bu işdə yoxam.

**M.Həşimov R.Zeynalovun bu addımının sonradan ona problemlərin yaradılacağından xəbəri olmasının sübutu olduğunu deyib:** "Başıma oyun açacaqlarından, sən demə, Hacı Mazanın əvvəlcədən xəbəri var imiş. Mən də qurulan bizneslə bağlı bütün məsələləri deputat Cavanşir Paşazadə ilə müzakirə etmişəm. Rəsmi sənədlər də Paşazadələrlə mənim aramda olub. Ramazan Zeynalovla mənim aramda heç bir rəsmi sənəd olmayıb. Belə olan halda Ramazan Zeynalovla məsələni necə aydınlaşdıra bilərəm? Bu adam gah deyir ki, mənim bu məsələyə aidiyyətim yoxdur, orada mənim payım yoxdur, ailə üzvlərimi notariusda müqaviləyə qol çəkməyə qoymamışam. Gah da deyir ki, oranı mən bağlatdırmışam. Guya mənim vergiyə borcum olub, işçilərin maaşını verməmişəm. Mənə izah edilsin ki, bu məsələlərə Ramazan Zeynalovun nə dəxli var? Burada Hacı Mazanın statusu nədir? Deputat Cavanşir Paşazadənin adına rəsmiləşdirilmiş obyektdə mənim təsisçi olduğum "Medi Sina" MMC-nin balansında olan rentgen aparatını Ramazan Zeynalov 2 il yarımdır girov saxlayır. Məhkəmə icraçıları da rentgen aparatını onun əlindən ala bilmir. İndi özünüz nəticə çıxarın. Bu adam kimdir? Kim Ramazan Zeynalova bu ixtiyarı verib ki, başqalarının adına olan obyektdə digər şəxsin əmlakını girov saxlayır?"

**Məhkəmə prosesi iyunun 27-də davam etdiriləcək.**

**❑ E.HÜSEYNOV**

Yeni MÜSAVAT
N 138 (6459) 24 iyun 2016

**Bir müddət öncə Rusiya-Türkiyə münasibətlərinin düzələcəyinə yaranan ümid işığı Moskvanın sərt sözləri ilə yenidən söndü. Kreml Ankaranı yalnız üzr istədikdən və təzminat ödədikdən sonra bağışlayacağını bəyan elədi.**

# Rusiya-Türkiyə münasibətlərində yeni gərginlik

## Politoloq: "Ankara bu məsələdə müəyyən kompromislərə getməlidir, ancaq..."


İbrahim Kalın

Bu arada mətbuata açıqlama verən Türkiyə prezidentinin sözcüsü İbrahim Kalın isə bəyan edib ki, Ankara Rusiyadan nə üzr istəyəcək, nə də təzminat ödəyəcək. Onun sözlərinə görə, münasibətlərin düzəlməsi üçün çox çalışmaq lazımdır.

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında Rusiya və Türkiyə arasında münasibətlərin düzəlməsinin Azərbaycan üçün də əhəmiyyətli olduğunu dedi: "Türkiyə bu məsələdə müəyyən kompromislərə getməlidir. Rusiyada siyasi hakimiyyətin xarakteri elədir ki, gərək onların nazı ilə oynayasan. Türkiyənin hökumət sözçüsü Numan Kurtulmuş üzrə bərabər ifadə işlədərək bildirdi ki, biz təyyarə vurulan zaman onun Rusiyaya məxsus olduğunu bilməmişik. Doğrudan da təyyarənin üzərində Rusiyaya məxsusluğunu bildirən heç bir işarə olmayıb. Bu məsələ onu göstərir ki, Türkiyə tərəfi müəyyən kompromislərə hazırdır. İndi Numan Kurtulmuş daha bir açıqlama ilə nitqinin arxasınca yanlışlığa görə Rusiyadan üzr istədiklərini də söyləyə bilər. Bir onun üzr istəməsi ilə Türkiyə nə isə ciddi bir şey itirməyəcək. Təyyarənin dəyərinin ödənilməsinə gəlincə isə o, köhnə bir təyyarədir. Bunun da qiymətini ödəmək və bu məsələni də qapatmaq olar. Rusiya Türkiyədən həm də pilotu vuran şəxsi istəyir. Ancaq bunu etmək olmaz".

**Politoloq hesab edir ki, Rusiya Türkiyə ilə münasibətlərin düzəlməsində maraqlıdır:** "Onlar istəyir ki, münasibətlərdə yumşalma yaransın və bundan istifadə edərək Türkiyəni NATO-nun cərgəsindən ayırsın. Hazırda Rusiyanın əsas hədəflərindən biri həm Avropa Birliyinə ayrı-seçkilik salmaq, həm də NATO-nun özündə daxili gərginlik yaratmaqdır. Bu səbəbdən də hesab edirəm ki, Türkiyə Rusiyanın o qədər də ağıllı olmayan tələblərini qismən ödəməyə çalışmalıdır. Bundan sonra isə barışıq haqqında danışıqlara gedilməlidir. Hər iki tərəfdən bu məsələlərlə bağlı komissiya var. Onlar işləyirlər. Ancaq Putinin ilkin şərtləri qalır".

**Q. Hüseynli bildirib ki, Rusiya ilə Türkiyənin münasibətləri Azərbaycana da təsir edə bilər:** "Türkiyədən çox Azərbaycan və Rusiya münasibətlərinə təsir edən Ermənistan faktoru və Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyətdir. Eyni zamanda bu vəziyyətlə əlaqədar olaraq Rusiyanın oynamaq istədiyi roldur. Türkiyə öz problemini Rusiya ilə həll edəcək. Ancaq Azərbaycanın Qarabağ məsələsində münasibətləri xeyli dərəcədə Rusiyanın mövqeyindən asılıdır. Doğrudur ki, Rusiya ilə Türkiyənin münasibətləri qaydasında olarsa, bu, Azərbaycana və Qarabağ probleminin həllinə müsbət təsir edər. Hazırda yaranmış vəziyyət Ermənistanın xeyrinədir. Eyni zamanda onu da qeyd edim ki, Rusiyanın da indiki vəziyyəti heç də qaydasında deyil. Çünki NATO-nun mühasirəsindədir və bu mühasirə çənbəri getdikcə də daralır. Həmçinin Rusiyaya tətbiq edilən sanksiyalar qaldırılmır və ölkənin iqtisadi vəziyyəti getdikcə aşağı düşür. Putinin hakimiyyəti də əvvəlki reytinqində deyil. Bütün bu faktlar isə Azərbaycan və Türkiyənin xeyrinə işləyən hallardır. Bunlardan maksimum yararlanmaq gərəkdir".

**Mövzu ilə bağlı "Bizim Yol" qəzetinə açıqlamasında təhlükəsizlik üzrə ekspert Sülhəddin Əkbər fərqli fikirlər söyləyib. S. Əkbər bildirib ki, 2015-ci ilin noyabr ayında hava məkanını pozduğu üçün Rusiyanın qırıcı təyyarəsi vurulan ərəfədə Türkiyənin hava məkanı rus təyyarələri tərəfindən təkrar-təkrar pozulurdu, dəfələrlə edilən xəbərdarlıqlara, etirazlara məhəl qoyulmurdu:** "Bu provokasiyalar təyyarə vurulanadək davam etdi və bundan sonra sərhəd pozulması baş vermədi. Çünki Rusiya istəyinə nail oldu. Rusiyanın həmin məsələdə iki istəyi vardı. Birincisi, yaxın müddətli taktiki: Suriyada Türkiyənin müdaxiləsini ya tam aradan qaldırmaq, alınmasa da minimuma endirmək. İkincisi, uzaq müddətli plan Türkiyəni Rusiyadan çıxarmaq idi. Çünki Rusiya kəşfiyyatı, strateqləri, elitası bilir ki, Rusiya-Qərb qarşıdurması həlledici mərhələyə daxil olub. Buna görə də Rusiya öz içərisində Qərb elementlərini istəmir. Keçmiş SSRİ-nin dağılması təcrübəsini də nəzərə alsaq, Rusiyanı ən çox narahat edən problemlərdən biri də milli-dini məsələlərdir. Rusiyanın daxilində olan türk-müsəlman faktorunu nəzərə alsaq, bu məsələdə də ən aktiv rolu Qərb düşərgəsində yeri olan Türkiyə oynaya bilər. Son zamanlar Türkiyə, Rusiya daxilində çox ciddi mövqe qazanmışdı və bu mövqeləri dərinləşdirməyə başlamışdı. Bu da gələcək perspektivdə qarşıdurma baxımından Rusiyanı ciddi narahat edirdi. Ona görə də məqsədyönlü şəkildə münasibətləri pozmağa getdi ki, Türkiyəni Rusiyadan çıxara bilsin. Bu səbəbdən Türkiyə-Rusiya yaxınlaşması və münasibətlərin əvvəlki səviyyəyə qayıdacağını, dolayısı ilə Ermənistan-Azərbaycan münaqişəsində müsbət rol oynayacağını düşünmürəm".

❑ **Əli RAİS**

# Azərbaycanla Avropa İttifaqı arasında çərçivə sazişi hazırlanır

## Rəsmi Bakı Avropa ilə münasibətləri yaxşılaşdırır; Ümumdünya Ticarət Təşkilatının qapıları ölkəmizin üzünə açılır

**Azərbaycan və Avropa İttifaqı arasında çərçivə sazişi müzakirə olunacaq. Rumıniyalı deputat Nikolai Norikanın müəllifi olduğu sənəd Avropa Parlamentinin iclasının gündəliyinə salınıb. Gələn ayın 6-da Strasburqda keçiriləcək iclasda çərçivə sazişi müzakirəyə çıxarılacaq. Rumıniyalı deputatın hazırladığı sənəd iyunun 16-da müzakirə olunmaq üçün Xarici Əlaqələr Komitəsində oxunuşdan keçib.**

Qeyd edək ki, Azərbaycanda iqtisadi böhran baş verdikdən sonra ölkə iqtidarı Avropa İttifaqı ilə əvvəllər olan soyuq münasibətləri yumşaltmaq üçün önəmli addımlar atmağa başlayıb. Neftin qiymətinin kəskin şəkildə azalması da Azərbaycan hökumətini Avropa Birliyi ilə əlaqələrini düzəltməyə vadar etdi. Ekspertlər hesab edirlər ki, hakimiyyətin bu siyasətinin yaxın gələcək üçün əhəmiyyəti böyük olacaq.

**Politoloq Elxan Şahinoğlu** xarici bazarlara çıxış əldə etmək üçün Avropa İttifaqı ilə yaxınlaşmanın böyük əhəmiyyət kəsb etdiyi qənaətindədir: "Avropa Birliyi "Şərq Tərəfdaşlığı" Proqramını irəli sürəndə burada 6 dövlət nəzərdə tutulurdu. Bunların içərisində Azərbaycan da var idi. Bu dövlətlərin bəziləri ilə sonradan assosiativ anlaşma deyilən sənəd imzalandı. Sənədi imzalayanlar Azərbaycanın yaxın qonşuları, müttəfiqləri olan Gürcüstan, Moldova və Ukrayna idi. Assosiativ anlaşma bu dövlətlərin Avropa Birliyinə üzvlüyünü sürətləndirməsə də, xüsusi imtiyazlar verirdi. Azərbaycan çox təəssüf ki, o zaman bu sazişi imzalamadı. Müəyyən şərtləri oldu. Qarabağla bağlı konkret mövqenin bildirilməsi tələb olundu. Bu baxımdan sənədi imzalamadı və nəticədə bir qədər soyuqluq yarandı. Şərtlərdən biri də Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olması idi. Azərbaycan hələ bu üzvlüyü də reallaşdırmayıb. Halbuki Rusiya, Ermənistan və Tacikistan kimi dövlətlər Ümumdünya Ticarət Təşkilatının üzvüdürlər. Azərbaycanda iki dəfə iqtisadi böhran olduğu zaman dövlət başçısının çıxışı oldu ki, biz müxtəlif bazarlara çıxmalıyıq, mallarımızı həmin bazarlarda satmalıyıq. Əsas bazarlar da Avropa İttifaqı ölkələridir. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan Avropa İttifaqı ilə əlaqələri bərpa etməyə qərar verdi. Bir ideya ortaya atdı ki, strateji sənəd imzalayaq. Bu sənədin üzərində də iş başladı. Bu illərdə iş ləng getdi. Amma son günlər proses bir qədər sürətlənib. Azərbaycan hökumətinin də Avropa Birliyi ilə əlaqələrin genişləndirilməsində marağı var. Qarşı tərəf də maraqlı görünür. Təsadüfi deyil ki, ittifaqın Azərbaycandakı xanım nümayəndəsi elə bir iqtisadi tədbir yoxdur ki, orada iştirak etməsin. Bu ondan xəbər verir ki, iqtisadi yöndə əməkdaşlığı genişləndirmək üçün münbit şərait var. Avropa İttifaqında Azərbaycanla bağlı sənədin qəbul edilməsi əməkdaşlığa qanunverici baza verə bilər. Strateji sənədin imzalanması işini də sürətləndirmək çox vacibdir. Gələn açıqlamalar ondan xəbər verir ki, bu istiqamətdə irəliləyişlər var. Son zamanlar Azərbaycanla Ümumdünya Ticarət Təşkilatı arasında danışıqların sürətlənməsinin də işartıları görünür. Bir xəbərdə rast gəldim ki, Azərbaycanı bu danışıqlarda xarici işlər nazirinin müavini təmsil edir. Artıq anlamalıyıq ki, mallarımızın rəqabət aparması, eləcə də dünya bazarına çıxması üçün mütləq Ümumdünya Ticarət Təşkilatına üzv olmalıyıq. Bu istiqamətdə Avropa Birliyi ilə əməkdaşlığı genişləndirmək üçün çox gözəl zəmin var".



**Politoloq çərçivə sazişinin mahiyyətindən də söz açdı:** "Bu saziş strateji sənədə verilən addır. Burada həll olunmalı məsələlər öz əksini tapır. İqtisadi və enerji əməkdaşlığının hansı zəmində qurulması və digər məsələlər sazişdə olacaq. Başqa detallar da sənəddə əks olunacaq. Məsələn, Avropa məhsullarının Azərbaycan bazarlarına necə gəlməyi, yaxud Azərbaycanın kənd təsərrüfatı mallarının Avropa bazarlarına necə çıxarılması və bu kimi məsələlər. Azərbaycan hökuməti haqlı olaraq həmin sənəddə ölkəmizin ərazi bütövlüyü ilə bağlı məsələnin də yer almasını istəyəcək. Bütün bunların böyük faydası olacaq. Sənəd imzalamaq o demək deyil ki, məsələlər bitdi. Sənədi imzalayandan, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaq üçün işləri sürətləndirəndən sonra oradakı maddələri yerinə yetirmək lazım gələcək. Rəqabətli iqtisadiyyat qurmaq, rəqabətli malların xaricə çıxışını təmin etmək, xarici malların Azərbaycana gəlişinə olan əngəllərin aradan qaldırılması və bu kimi məsələlər. Hər şey hakimiyyətin atacağı addımlardan asılıdır. Addımlar yetərli olacaqsa, Avropaya inteqrasiya sürətlənəcək".

❑ **Cavanşir ABBASLI**

# Yay devalvasiyası anonsu: 100 dollar 180 manat olacaq

## Ekspertlər manatın ucuzlaşmasının anonsunu verirlər, Mərkəzi Bank isə dolları qəpik-qəpik bahalaşdırır




**Milli valyuta olan manatın yenidən ucuzlaşmağa başlaması devalvasiya şübhələri yaradır. Dolların məzənnəsinin qəpik-qəpik artırılması davamlı olduqca, manatın kəskin ucuzlaşacağı ilə bağlı ehtimallar güclənir. Bəzi ekspertlər bildirirlər ki, hökumət yay devalvasiyasına hazırlaşır. Ucuzlaşmanın hansı həddə olacağı isə dəqiq deyil.**

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, manatın məzənnəsinə təsir edən məsələlər Azərbaycanda daxili iqtisadi paradiqmadan doğmur:** "Çünki Azərbaycanda üzən məzənnə üçün heç bir ortam olmadığı üçün xaricdə olan proseslərin Azərbaycana təsiri görünmür. İndi də dünyada iki önəmli hadisənin gözləntisi yaranıb. Böyük Britaniyada keçiriləcək referendum və növbəti FES toplantısı. Hər iki hadisənin dünyada dollar indeksinin artması ilə nəticələnə biləcəyi ehtimalı var. Buna görə də gözlənti formalaşdığına görə artıq dünyada digər valyutalara nisbətən dolların bahalaşması prosesi başlayıb. Azərbaycana qonşu ölkələrdə də bu, özünü büruzə verir. Qonşu ölkələrin valyutalarında dəyişiklik baş verərkən bizim iqtisadi əlaqələrimiz onlarla daha sıx olduğundan bu, Azərbaycana da təsir göstərir. İkinci məsələ neft qiymətləri məsələsidir. Müəyyən dərəcədə stabillik yaransa da, müxtəlif ciddi proqnozlar var ki, yenidən qiymətdə ucuzlaşma ola bilər. Bu da yenidən Azərbaycan manatına təsir göstərəcək".

**Ekspertin sözlərinə görə, manatın dəyər qazanmasının mümkünlüyü kimi bəzi ekspertlər tərəfindən səsləndirilən fikirlər əsassızdır:** "Azərbaycanın valyuta ehtiyacları barmaqla sayılacaq qədər açıqdır. Təqribən 9 milyard dollarlıq məhsul idxal edirik. Ölkədən çıxan kapital axını 2 milyarddır, azərbaycanlıların xaricə turist kimi getdikləri səfərlər çərçivəsində 2 milyard dollara yaxın vəsait ölkədən çıxır. Bu, 11 milyard vəsait deməkdir. Azərbaycana isə bu il cəmi 4 milyard civarında neft satışından gəlir gələcək. Neft sektorunun ixracatı da azdır, valyuta daxilolmalarında təsiri görünmür. Ölkəyə gələn turist sayı da istənilən qədər deyil. Rəsmi səviyyədə turist sayından razılıq olsa da, turistlərin sayı kifayət qədər aşağıdır. Deməli, bizim ehtiyacımız 11 milyarddır, amma ölkəyə 4-5 milyard vəsait daxil olacaq. Qalan pulu haradan almalıyıq? Bunun yollarından biri devalvasiyadır, bunu da hökumət etmir. Düşünür ki, manata basqılar artdıqca, yenidən məzənnənin aşağı düşməsi prosesi olacaq. Ona görə kəskin devalvasiya gözləmirəm. Ən azından, dolların 1,60- 1,65 manat səviyyəsinə qədər bahalaşması indiki proseslərə baxanda görünür".



**Ekspert Elşad Məmmədov isə musavat.com-a açıqlamasında qeyd edib ki, manata basqılar yenidən artır:** "Mərkəzi Bank 2016-cı ilin 1-ci rübü üçün ölkənin makroiqtisadi durumunu əks etdirən ən mühüm göstəricilərdən olan tədiyyə balansını dərc edib. Həmin sənədə görə, 2016-cı ilin 1-ci rübündə ölkə iqtisadiyyatı təxminən 1,27 milyard dollar mənfi saldo ilə tamamlayıb. Qeyd etmək lazımdır ki, mənfi saldo tədiyyə balansının həm cari əməliyyatlar hesabı, həm də maliyyə hesabı bölmələrində qeydə alınıb. Tədiyyə balansının struktur təhlili göstərir ki, cari əməliyyatlar hesabındakı mənfi saldo xidmətlər balansı və ilkin gəlirlər balansındakı mənfi saldo ilə bağlı olub. Son illər neft sektorundakı ixracın hesabına formalaşmış xarici ticarət balansındakı müsbət saldonun kəskin azalması isə xidmətlər balansında və ilkin gəlirlər balansındakı kəsirləri artıq bağlamaq iqtidarında deyil. Nəzərə alsaq ki, dərc olunan tədiyyə balansının göstəriciləri 2016-cı ilin yalnız 1-ci rübünü əks etdirir, aprel-may aylarında isə ixrac-idxal dinamikası sonuncunun xeyrinə olmuşdur, bu prosesin 2-ci rübün nəticələrinə görə dərinləşməsini proqnozlaşdırmaq olar".

**Ekspertin sözlərinə görə, tədiyyə balansında nəzərə çarpan bir mühüm məsələ də balanslaşdırıcı bölmənin ölkə iqtisadiyyatındakı idxal-ixrac rəqəmlərini nəzərə aldıqda çox böyük rəqəmlərlə, 1,13 milyard dollarla ifadə olunmasıdır:** "Beynəlxalq praktikaya görə balanslaşdırıcı maddələrdə qeyd edilən göstəricilər idxal və ya ixracın 5-7 faizindən artıq olduqda, artıq bu, aparılmış təhlilin effektivliyinə sual yaradır. Mərkəzi Bankın təqdim etdiyi tədiyyə balansında isə bu rəqəm 25 faizdən artıqdır ki, bu da tədqiqatın keyfiyyəti ilə bağlı suallar yaratmaqdadır. Tədiyyə balansındakı kəsirin əsas hissəsi maliyyə hesabında qeydə alınıb, bu da Azərbaycan iqtisadiyyatının ən ağrılı problemlərindən olan ölkədən kapital axını ilə bağlıdır. Təəssüf ki, bu problemin həlli istiqamətində ciddi müsbət dinamika müşahidə edilməmişdir. Belə ki, hesabat dövründə birbaşa və portfel investisiyalar bölmələrində müsbət saldo qeydə alınsa da, digər investisiyalar bölməsindəki depozitlər, nağd valyuta, ticarət kreditləri və avanslarda olan kəsrlər 2,3 milyard dollar olub ki, nəticədə maliyyə hesabı üzrə kəsrlər təxminən 2 milyard dollar olub. Yuxarıda qeyd olunanlar onu deməyə əsas verir ki, ölkə iqtisadiyyatında kapital axını problemi məsələsi öz həllini tapmasa, milli valyutaya təzyiqlər arta bilər ki, bu da ölkə iqtisadiyyatındakı durumu nəzərə aldıqda ciddi, sistemli makroiqtisadi problemlərə səbəb ola bilər. Buna görə də ölkədən kapital axınının qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlər görülməlidir ki, bunlar da ilk növbədə investisiyalar üçün münbit iqtisadi "iqlimin" formalaşdırılmasından ibarət olmalıdır".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vahid Əhmədov isə azvision.az-a açıqlamasında qeyd edib ki, 100 dollar 180 manat səviyyəsinə qədər qalxa bilər:** "Hazırda bu, real görünür. Düşünürəm ki, 100 dollar 170 və 180 manata qədər qalxa bilər. Ola bilər ki, bu qiymət çox və ya az olsun. Hər bir halda yumşaq devalvasiya prinsipi doğru addımdır".

**Onun sözlərinə görə, manat gec-tez öz real bazar dəyərini almalıdır və manatı təzyiq altında qoruyub saxlamaq düzgün deyil:** "İxracda müəyyən qədər artım olsa da, bu, kifayət qədər deyil. Bununla bərabər idxal müəyyən qədər artıb. Həmçinin neftin qiyməti də manata ciddi təsir edir. Son iki həftədə müşahidə edirəm ki, Mərkəzi Bank manatı yumşaq devalvasiya prinsipi ilə buraxır. Bu da yavaş-yavaş davam etməlidir. Düşünürəm ki, ilin axırına kimə bu səviyyədə davam etsə, manat real bazar dəyərini tapa bilər. Bunu etmək lazımdır. Manatı qoruyub saxlamağa ehtiyac yoxdur. Dünyada və ölkəmizdə gedən iqtisadi proseslər imkan verir ki, manat real dəyərini alsın. Manatın qorunub saxlanması üçün vəsaiti çox da xərcləməyə ehtiyac yoxdur. Həmin vəsaiti kənd təsərrüfatı, sənaye və turizmə yönəltmək lazımdır".

❑ **Röya RƏFİYEVA**

# Xarici borc məsələsi: alaq, yoxsa...

## Saleh Məmmədov: "Elə bir dövlət yoxdur ki, yalnız daxili güc hesabına yüksək inkişafa nail ola bilsin"

**Ölkənin borclanması yenidən gündəmdədir. Ekspertlər bildirirlər ki, ölkədə xarici borclar nisbi olaraq kiçik həcmdədir, amma getdikcə böyüyür. Bəzi ekspertlər belə durumun ölkəni asılı vəziyyətə sala biləcəyini, hər vətəndaşın borc payının artmasının neqativ nəticələrə gətirib çıxaracağını vurğulayırlar. Bildirilir ki, bunun müstəqilliyə təhlükə törədə biləcəyi də istisna deyil. Bəzi ekspertlər isə qeyd edirlər ki, xarici borclar çox aşağı səviyyədədir və narahat olmağa dəyməz.**

**Ekspert Saleh Məmmədov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, hər iki qrup ekspertlərin dediyində gerçəklik var: "Amma Lenin dövlət quruculuğu siyasəti nöqteyi nəzərindən yanaşdıqda, bu, belədir. Görünür, uzun müddət bu siyasətin təsiri altında yaşadığımıza görə hələ də belə labirintdən çıxa bilmirik. Əslində müxalifətin tənqid hədəfi iqtidarın borc vəsaitlərini cəlb etməkdə və ölkənin inkişafını zəruri maliyyə ehtiyatları ilə təmin etməkdə ləngiməsi olmalı idi. İqtidar isə çıxış yollarını aramalı idi. Dünyanın inkişafı təcrübəsi göstərir ki, hansı ölkə iqtisadiyyatının inkişafı üçün daha çox vəsait cəlb edə bilibsə, o da ən yüksək inkişafa nail olub. Elə bir dövlət yoxdur ki, yalnız daxili güc hesabına yüksək inkişafa nail ola bilsin. Xarici borclanma səviyyəsi ümumi inkişaf səviyyəsi ilə düz mütənasib asılılıqdadır. Niyə da olmasın, nə qədər çox vəsait gətirə bilsən, bir o qədər çox yarada biləcəksən, istehsalın artacaq, işsizlik enəcək, gəlirlərin artacaq. Yeni daxil olan maliyyə sənin çürüyüb torpağa qarışan bütün rezervlərini faydalı istifadəyə çevirəcək, boş qalan torpaqların, faydalı qazıntıların, ən müxtəlif insan amilin hərəkətə gətiriləcək və faydalı məhsula çevriləcək. Hansı xalq ki, yeni vəsaitlər cəlb edə bilmir, onların bir qayda olaraq, inkişafı çox aşağı səviyyədədir".



**Ekspertin sözlərinə görə, heç bir dövlət ölkəsinin inkişafına böyük miqdarda vəsait cəlb edə bilməsə, yüksək inkişafa nail ola bilməz:** "Əslində hökumətlərin iş səmərəliliyinin ən yaxşı göstəricisi də elə bundan ibarətdir. Əgər hökümət bunu edə bilmirsə, ölkəsinin inkişafı da ya İran, ya Haiti və ya Nigeriya kimi olacaq. Əgər borc vəsaitlərini cəlb edə bilirsə, ölkəsinin inkişafını da Lüksemburq, İsveçrə, Sinqapur kimi çox yüksəklərə qaldıra bilir. Azərbaycanın hətta belə neft bumunun ən ciddi vaxtlarında borclanmaya böyük ehtiyacı vardı və indi də var, gələcəkdə də olacaq. Həm də borclanma üçün əldə olunan vəsaitləri yerləşdirmək üçün səmərəli və zəruri layihələr var, üstəlik, borc vəsaitlərini cəlb etməyə kifayət qədər imkanlar var. "Borc bizi xarici kapitaldan asılı vəziyyətə sala bilər" arqumentinə cavab olaraq bildirmək istəyirəm ki, tam əksinə, hansı dövlətdən və ya onun özəl şirkətindən borclansan, o, tam sənin müdafiəçinə çevriləcək. Heç bir borc verən istəməz və imkan verməz ki, borc alan dövlətdə qarışıqlıq olsun. Əksinə, borc alan dövləti qoruyacaq. ABŞ dövlətinin və ya onun rezidentlərinin 50-100 milyardı yatırılan dövlətin ərazisinə kim girə bilər?".

**S.Məmmədovun sözlərinə görə, bugünkü bütün amillər Azərbaycana böyük məbləğdə kredit alınmasının tərəfindədir:** "Amma bir neçə vacib şərt nəzərə alınmalıdır. Kredit ciddi və səmərəli layihələrə xərclənməlidir, qətiyyən istehlak xarakterli istiqamətlərə yönəldilə bilməz. Kreditlərin istifadəsi zamanı monopoliya aradan qaldırılmalı, hər kəs eyni səviyyədə proseslərə buraxılmalıdır. Kreditlərin istifadəsi üçün çoxsaylı layihələr hazırlanmalıdır, borclar yalnız hazır layihəyə verilə bilər".

**S.Məmmədov qeyd edib ki, Azərbaycanın üzv olduğu beynəlxalq maliyyə institutları- Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa İnkişaf və Yenidənqurma Bankı, həmçinin Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı və sair qurumlardan kredit almaq imkanları var:** "Bu qurumlarla Azərbaycan işləyir, amma ölkənin kvotası böyükdü, kreditləşmənin həcmini xeyli artırmaq olar. Həmçinin suveren dövlət fondlarından müxtəlif formalarda vəsait cəlb etmək olar. Özəl banklar və investisiya fondlarından, eyni zamanda transmili istehsalat və ticarət şirkətlərindən də vəsait cəlb etmək olar. Borclanma üçün çox böyük imkanlar var. Amma bu, heç də o demək deyil ki, bugünkü şəraitdə böyük miqdarda borc vəsaitləri cəlb etmək olar. Bir gerçəkliyi dərk etməliyik ki, neft erası qurtardı, heç kim sərmayə yatırmaq üçün bizə gəlib xahiş etməyəcək. Bu vəsaitlərin cəlb oluna bilməsi üçün çox geniş miqyaslı tədbirlər görmək və dünya miqyasında iş aparmaq lazımdır".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 138 (6459) 24 iyun 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Düşməni təlaşda saxlayan təlimlər həm də tələsmək üçün vasitəçilərə mesajdır

## Qarabağ məsələsində hərbi güc amilinin rolu artır; münaqişə ilə bağlı ABŞ-Rusiya anlaşması niyə baş tutmur? **Politoloq:** "Rusiya konfliktə dair yol xəritəsini bəyan etməlidir..."

**Aprel döyüşlərindəki uğurdan sonra Azərbaycan toplumunun Peterburq görüşü ilə bağlı gözləntiləri də doğrulmadı. Sanki hər şey köhnə qapalı dairəyə qayıtmış kimidir və apreldəki 4 günlük müharibənin əsas dərsi və nəticələri də artıq unudulub. Əsas nəticə isə budur ki, Dağlıq Qarabağ məsələsində kardinal dönüşün vaxtı çatıb və konfliktin bir az da uzanması münaqişə zonasında böyük müharibəni labüd edəcək.**






Müharibə isə məntiqlə Ermənistanla birgə vasitəçi dövlətləri də qane eləmir. Elə isə onun qarşısının alınması da məntiqlə daha çox işğalçı və vasitəçilərin problemi olmalıdır. Yolu bəllidir: təcavüzkarı beynəlxalq hüquqa hörmət etməyə, nəhayət, zəbt elədiyi Azərbaycan torpaqlarından tədricən, mərhələli şəkildə çıxmağa məcbur eləmək, nəinki söz oyununu, danışıq imitasiyasını davam eləmək.

Konflikt ətrafındakı son gəlişmələr də göstərdi ki, Qarabağ ixtilafı üçün mərhələli həll modelinin alternativi yoxdur. Yetər ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri, xüsusən də münaqişənin çözümündə aparıcı rola malik Rusiya iradə ortaya qoysun.

***

Doğrudur, Sank-Peterburq görüşləri ilə bağlı müəyyən nikbin bəyanatlar da səslənir. Belə iddialar var ki, üç prezidentim təması zamanı məhz mərhələli həll variantının startı verilib. Bunun həqiqətən də belə olduğunu söyləmək üçün yəqin ki, bir az gözləmək lazım gələcək. Ola bilsin prezidentlərin növbəti görüşünədək və ya növbəti yüksək səviyyəli görüş zamanı nələrsə bəlli olsun, real mənzərə üzə çıxsın.

Ən betəri o olardı ki, bu kimi optimist açıqlamaların arxasında, sadəcə, Azərbaycanın güc yolu ilə öz ərazilərini boşaltmağa mane olmaq üçün növbəti təbliğati gediş niyyəti dayansın. Yəni real olaraq onların arxasında heç nə durmasın. Çünki Azərbaycan xalqının işğala dözüm limiti bitib, səbri artıq tükənib. Bunu kim bilməsə də, üç həmsədr ölkədə - Rusiya, ABŞ və Fransada yaxşı bilirlər.

Bu üzdən də Azərbaycan haqlı olaraq özünün hərbi və döyüş qabiliyyətini durmadan artırmaqdadır. Prezidentlərin Peterburq görüşündən bir gün qabaq başlamış və hələ də davam edən genişmiqyaslı hərbi təlimlər bunun növbəti təzahürü idi və sözsüz ki, həm də cəmiyyətin çağırışları və gözləntilərindən qaynaqlanır.

Müdafiə naziri Zakir Həsənovun rəhbərlik etdiyi və 25 min şəxsi heyətin, 300-dən çox tank və zirehli döyüş maşınının, 100-dən artıq raket və artilleriya qurğusunun, 40-dək hərbi aviasiya və 30-dan çox hava hücumundan müdafiə sistemlərinin, Hərbi Dəniz Qüvvələrinin gəmi birləşməsinin və Xüsusi Təyinatlı Qüvvələrin bölmələrinin cəlb olunduğu həmin təlimlər bu gün yekunlaşacaq. Bu gün təlimin gedişini jurnalistlər də izləyə biləcək.

Bu təlimlər daha çox cəbhəyanı zonalarda keçirildiyi üçün qüvvələrin böyük qismi bu zonalara cəlb edilib. Bu da təbiidir və düşmənə, cəmi bir neçə on kilometr məsafədə - Xankəndinə oğrun yolla gəlmiş Ermənistan prezidenti Serj Sərksiyana və onun separatçılarına ciddi bir xəbərdarlıq mesajıdır.

Ermənistanla sərhəd olan anklav Naxçıvanda da Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimi keçirilir. Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimə hazırlıq barədə Ali Məclisin sədrinə raport verib. Bildirilib ki, təlimə 2085 nəfər şəxsi heyət, 200-dən artıq döyüş və müxtəlif təyinatlı texnikalar cəlb olunub. Qüvvə və vasitələrə ərazinin xarakterinə uyğun olaraq hədəf şəraiti yaradılıb.

***

Azərbaycanın sülh danışıqlarında ciddi irəliləyişin olmadığı dönəmdə öz hərbi güc və qüdrətini artırması ilə məşğul olması təbii ki, indi ikiqat önəm daşıyır. Çünki aprel hadisələrindən sonra konfliktin həllində siyasi güclə yanaşı, hərbi güc amilinin rolu heç vaxt olmadığı qədər artıb. Bu amil ta o vaxta kimi əhəmiyyətini itirməyəcək ki, prezidentlərin görüşündə, nəhayət, ciddi irəliləyiş qeydə alınacaq, işğalçı Ermənistan konstruktiv mövqeyə gətiriləcək.

**Ancaq belə görünür, bu prosesə mane olan mühüm əngəllərdən biri Qarabağ məsələsində davam edən Rusiya-Qərb (ABŞ) rəqabətidir. Məsələn, Peterburq görüşünün tam məqsədinə nail olmadığını deyən sabiq dövlət müşaviri Qabil Hüseynlinin qənaətincə, Rusiya bununla iplərin tamamilə onun əlində olduğunu və bir növ supergüc kimi müəyyən bölgələrə nəzarət etdiyini sanki Qərbə nümayiş etdirib (axar.az):** "Həmsədrlərin görüşün yalnız son raunduna buraxılması, onlara səlahiyyətlərini tam icra etməyə imkan verilməməsi bütün Qərb dünyasına siyasi bir mesaj idi. Putinin bir neçə gün öncə dünyanın taleyinin ABŞ-dan asılı olduğunu etiraf etməsinə baxmayaraq, əslində bu, Rusiyanın Amerikaya yenidən barmaq silkələməsi və əzələ nümayişidir. Əgər Moskva bu görüşlər silsiləsini belə ağır və istəklərinə uyğun şəkildə apararsa, bu xətt bir yerdə qırılacaq. Çünki Bakı görüş naminə görüş keçirmək fikrində deyil və bütövlükdə Azərbaycanın taleyini həll etmək kimlərəsə tapşırılmayıb. Rusiya Qarabağın iqtidarını tamamilə əlinə almaq prinsipi ilə bu məsələni həll edə bilməz. Görüşün təfərrüatı ilə bağlı bəzi detallar hələ açılmayıb. Yəni diplomatik bəyanat hələ heç nə demək deyil. Söhbət problemin mərhələli, yoxsa paket həll variantından gedir. Moskvanın dərdi ermənilərlə birlikdə Dağlıq Qarabağın statusu məsələsidir. Çox güman ki, danışıqlar bu kontekstdə gedib. Ancaq rayonların qaytarılmasının açıq və birmənalı formada vurğulanması və bunun yekun nəticədə elan edilməməsi görüşün əhəmiyyətini heçə endirdi".

**Politoloqa görə, hazırda əsas vurğu, diqqət tərəflər arasında etimad mühitinin yaradılmasına və böyük sülh sazişinə yönəldilməlidir:** "Rusiya danışıqların gedişi ilə bağlı açıq bəyanat verməli və yaxın vaxtlarda sülh yaratmaq prosesinin yol xəritəsini bəyan etməlidir. Ən azından Azərbaycan ictimaiyyətinə bəlli olmalıdır ki, işğal edilmiş ərazilərimizin azad edilməsinin xəritəsi necə təşkil olunub. Yəni söhbət 5+2 prinsipindən, yoxsa başqa məsələdən gedir. Ermənilərin işğal edilmiş ərazilərimizdən çıxarılmasının dəqiq yol xəritəsini bilməliyik. Əks təqdirdə, əlaqələr üzülə, ordu quruculuğa daha ciddi sürət ala bilər. Azərbaycan müharibə tərəfdarı deyil. Biz əlverişli beynəlxalq şəraitin yetişməsini gözləyirik. Hadisələrin inkişafı, yeni dünya düzəninin formalaşdırılması ilə bağlı Qərbin cəhdləri göstərir ki, Rusiya yavaş-yavaş geri çəkilməkdədir. Bu prosesdə isə Azərbaycan üçün yeni perspektiv və şanslar açılır. Çox da uzaq olmayan bir vaxtda bunun şahidi olacağıq və o zaman Azərbaycan hökm edən tərəf olacaq".

# Azərbaycanlı general: "Ermənilər artıq məğlubiyyətini hiss edir..."

**Dünən Heydər Əliyev adına Ali Hərbi Məktəbin məzunlarının buraxılış mərasimi keçirilib (APA). Tədbirdə çıxış edən müdafiə nazirinin şəxsi heyət üzrə müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi, general-leytenant Kərim Vəliyev bildirib ki, aprel ayında cəbhədə baş verən hadisələr Azərbaycan ordusunun gücünü bütün dünyaya nümayiş etdirib:**


Kərim Vəliyev

"Silahlı Qüvvələrimizin aprel ayında əks-hücum əməliyyatı nəticəsində uzun illər işğal altında olan vacib əhəmiyyətə malik yüksəkliklər azad edildi. Bu döyüşlərdə zabit və əsgərlərimizin göstərdiyi rəşadət xalqımızın yaddaşında əks olundu. Düşmən artıq hiss edir ki, Azərbaycan ordusu hər zaman ondan üstündür, Vətənə, xalqa, dövlətə sədaqəti hədsizdir. Silahlı Qüvvələrin rəhbərliyi əmindir ki, bugünkü zabitlər şəhidlərimizin qisasını alacaq, torpaqlarımızın müdafiəsində qəhrəmanlıq göstərəcəklər. Torpaqlarımızın azad edilməsində Vətən sizdən şücaət gözləyir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**"Kasıbınkı yaydır" fikrini əsas tutan hər kəs yay fəslinin gəlişini səbirsizliklə gözləyirdi ki, bazarlarda ucuzluq olacaq. Ən azından meyvə-tərəvəzin qiymətində müəyyən endirimlər olacaq. Ancaq bu bir gözlənti olaraq qaldı. Çünki paytaxt bazarlarında meyvə-tərəvəzin qiyməti bahadır.**

# Bazarlardakı kəskin bahalaşmanın üç mühüm səbəbi

## Rusiya bazarları, hava şəraiti və devalvasiya-bəs nə edək?

Apardığımız müşahidələr ötən illə müqayisədə kənd təsərrüfatı məhsullarının qiymətində 30-40 faiz bahalaşma olduğunu deməyə əsas verir. Bir neçə bazar və marketdə apardığımız müşahidə zamanı həm də məhsul qıtlığı olduğunu gördük. Bu qıtlıq xüsusən də meyvələrdə hiss olunurdu. Qiymətlərə gəlincə isə pomidor marketdə 1 manat 30 qəpiyə, bazarlarda 2 manat 30 qəpik və 2 manat 50 qəpik arasında satılır. Xiyar bir həftə əvvələ qədər bazarda 40 qəpiyə idisə, indi 70-80 qəpiyə, lobya 70 qəpiyə, badımcan bazarda 50 qəpik, mağazada isə 59 qəpik və 1 manat 57 qəpiyə satılır.

Meyvələrin də qiyməti də "zirvədədir". Belə ki, meyvələrdən gilasın qiyməti 3-6 manat arasında dəyişir. Ərik 3 manata, üzüm 6 manata, əzgil 4 manata, alça 2 manata satılır. Bazarlardakı məhsul qıtlığı ilə yanaşı alıcılarında sayında kəskin azalma müşahidə edilirdi. Baş çəkdiyimiz "Yaşıl bazar"da **satıcı işləyən Cahangir Əliyev** də alıcı və məhsul qıtlığının yaşandığını dedi: "İki həftə əvvələ qədər qiymətlər tamamilə fərqli idi. Daha ucuz idi. Düzdür, keçənilki ucuzluq yoxdur. Məsələn, keçən il bu vaxtı xiyarı 30 qəpikdən almaq olurdu. İndi isə 70 qəpikdir. Bunun səbəbi yağış və dolunun yağması ilə əlaqəlidir. Ona görə də qıtlıqdır".

**Meyvə satıcısı Əhməd Məmmədov məhsulun az olduğunu dedi:** "Bu yay meyvələr çox azdır. Həm də baha gəlir. Baha aldığımız üçün də baha satırıq. Keçən il alçanı 50 qəpiyə satırdıq, bahadır deyirdilər. Meyvələrimiz Azərbaycanın tələbatını ödəyə bilmir. Az məhsulumuz ola-ola hələ Rusiyaya daşıyırlar. Gərək birinci özümüzün tələbatını ödəyək, sonra xaricə sataq. Bizdə əksinədir. Birinci meyvə-tərəvəzlə Rusiyanı təmin edirlər, artıq qalan az miqdarda kənd təsərrüfatı məhsullarını da baha qiymətə özümüzə satırlar".

**Alıcılar da mövcud vəziyyətdən narazı idilər. Onlar artıq öz ərzaq səbətlərində müəyyən ixtisarlar etdiklərini deyirdilər. Alıcı Məlahət Abbasova bəzi meyvələri ixtisar etdiyini dedi:** "Mürəbbə bişirmək üçün meyvə almaq istədim. Amma qiymətlər elə bahadır ki, yaxına getmək olmur. Həm də azdır. Axşam gələndə mən bazarda gilas tapa bilmirəm. Başqa vaxt çox olurdu. Ümid edirəm ki, gələn aya qiymətlərdə müəyyən ucuzluq olacaq".

Maraqlıdır, kənd təsərrüfatı məhsullarının birdən-birə bu qədər bahalaşmasına səbəb nədir?

Ekspertlər bunun səbəbinin müxtəlif olduğunu düşünür. Kimisi kənd təsərrüfatı məhsullarımızın daxili bazarı ödəyə bilmədiyini və bu kimi məhsulları xaricdən almalı olduğumuzu düşünür, kimisi isə bahalaşmanın səbəbini məhsullarımızın Rusiya bazarına daşınmasında görür.



**İqtisadçı ekspert Rəşad Həsənov bazarlarda müşahidə olunan bahalaşmanın bir neçə səbəbi olduğunu dedi:** "Hazırda bazarlarda müşahidə olunan bahalaşmanın bir neçə səbəbi var. Birinci səbəb ondan ibarətdir ki, yerli istehsal daxili bazarın tələbatını ödəyə bilmir. Xüsusilə də yaz aylarında yağışların, dolunun yağması, havanın şaxtalı keçməsi kənd təsərrüfatına ciddi zərər vurdu ki, bu da kənd təsərrüfatı məhsullarının, xüsusən də meyvə-tərəvəzin 2016-cı il mövsümünün daha qıt olması ilə nəticələnib. Bu baxımdan da hazırda bazarda təklif olunan məhsulların həcmi azdır. Bahalaşmanın ilk səbəbi də məhz bundan qaynaqlanır. İkinci səbəb isə Rusiya bazarlarına çıxış imkanlarının nisbətən artmasıdır. Belə ki, Rusiya ilə Türkiyə arasındakı münasibətlərin kəskinləşməsi fonunda Azərbaycandan Rusiyaya daşınan meyvə-tərəvəz məhsullarının həcmində artım müşahidə olunur. Bu, Gömrük Komitəsinin açıqladığı rəqəmlərdə də öz əksini tapıb. Bu baxımdan da az olan daxili tələbatı ödəmək gücü olmayan bir ölkənin həm də ixrac imkanlarının genişlənməsi öz-özlüyündə bazarlarda qıtlığı daha da dərinləşdirən amillərdəndir. Üçüncü amil isə devalvasiya ilə əlaqəlidir. Devalvasiya təsərrüfat subyektlərinin xətlərini artırmaqla, məhsulun maya dəyərinin artırılmasına gətirib çıxarır. Digər tərəfdənsə, bazarların rəqabət mühitinin pisləşməsinə səbəb olur. Belə ki, xaricdən idxal olunan ərzaq və meyvə-tərəvəz məhsullarının qiymətləri, dediyim kimi, xarici valyuta ilə müəyyənləşdiyindən bahalaşdı. Bu bahalaşma da daxildə istehsal olunmuş məhsulla xaricdən gətirilmiş məhsulların qiymətləri arasında fərq yaratdı. Hazırda daxildə istehsal olunmuş məhsulların qiymətlərində artımları ona görə müşahidə edirik ki, xaricdən gələn məhsulların qiyməti bahadır və qiymətlər yuxarıya doğru artır".

**İqtisadçı ekspert qiymətlərin ötən illə müqayisədə kəskin bahalaşdığını bildirdi:** "Hər iki səbəb hazırda kənd təsərrüfatı məhsullarının qiymətinin ötən illə müqayisədə kəskin şəkildə bahalaşmasına gətirib çıxarır. Müşahidələr onu göstərir ki, təxminən 30 faizlik orta bahalaşmadan söhbət gedir. Bəzi məhsullarda isə bu, 70 faizə qədər bahalaşıb".

❑ **Günel MANAFLI**
**Foto müəllifindir**

# Yeni ipoteka şərtləri: 100 min manat üçün 1000 manat əməkhaqqı

## Ölkə başçısının ipoteka fərmanı mənzil bazarına nə vəd edir; İpoteka Fondu yeni müstəqil kollegial quruma çevrilir

**Prezident İlham Əliyev Azərbaycanda ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında fərman imzalayıb. Bu fərmanla Azərbaycan İpoteka Fondu ilə bağlı bəzi məsələlər həllini tapıb. Belə ki, bundan sonra Azərbaycanda yeni tikilən, ancaq Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun istismarına icazə verilməsi gecikən çoxmənzilli binalardakı mənzillərin alınması üçün ipoteka krediti veriləcək.**

İndiyə qədər "Azərbaycan İpoteka Fondu" ASC-nin ipoteka kreditləşməsinə cəlb etdiyi vəsait, yaşayış sahəsinin 1 kvadratmetri üçün hesablanan qiyməti ipoteka kreditinin verilmə tarixinə ölkənin şəhər və rayon ərazilərinin müvafiq zonalarında orta bazar qiymətindən artıq olmayan, təmir edilmiş, Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun istismarına icazə verilmiş çoxmənzilli binalardakı mənzillərin və məlumatlandırma icraatı qaydasında inşa edilmiş, tikintisinin başa çatması barədə məlumat verilmiş yaşayış evlərinin alınmasına yönəldilib. Dəyişikliyə əsasən isə Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun istismarına icazə verilməsi tələbi aradan qaldırılıb.

Fərmanda cəmiyyətin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi məqsədi ilə "Elektron hökumət" portalında "Elektron ipoteka" sisteminin yaradılması və 2017-ci il yanvarın 1-dən tətbiq edilməsi də nəzərdə tutulub.



**"Yeni Müsavat"a açıqlamasında fərmanı şərh edən mənzil-tikinti məsələləri üzrə ekspert Nüsrət İbrahimov bildirdi ki, bu fərmana uyğun olaraq, ipoteka evlərinin verilməsində bir sıra dəyişikliklər olacaq:** "Birinci dəyişiklik odur ki, hüquqi təsdiqedici sənəd olmalıdır. İkincisi, təmirli və yaşayış üçün yararlı olmalıdır. Maksimum məbləğ əvvəllər 50 min manat idisə, indi bu məbləğ Müşahidə Şurasının qərarı ilə ildə bir dəfə müəyyən ediləcək. Ümumilikdə orta qiymətdən çıxış edərək maksimum məbləğ müəyyən ediləcək və yəqin ki, maksimum məbləğ 100 min manatdan çox olacaq. Faiz dərəcələrində də dəyişiklik edilib, əvvəllər konkret faiz dərəcəsi 4-8 faiz idi, indi isə hər il Müşahidə Şurası ümumi iqtisadi vəziyyətdən asılı olaraq, faiz dərəcələrini müəyyən edəcək. Ondan sonra əvvəlki güzəştli kreditlər üçün ilkin ödəniş minimum 5 faiz idi, lakin banklar 20-30 faiz tələb edirdilər, indi isə fiksə olunmuş rəqəmdir, 15 faizdir. Adi kreditlərdə isə ilkin ödəniş 15-25 faizdir. Bu da başqa bir dəyişiklikdir. Eyni zamanda bu prosedurun konkret müddəti də son dəyişiklikdə nəzərdə tutulub. Yəni prosedur maksimum 60 gün çəkə bilər, ondan az ola bilər, ancaq ondan çox olmamalıdır. Daha bir dəyişiklik müəllimlərə tətbiq edilir. 5 il stajı olan gənc müəllimlərə güzəştli kreditlər verilməsi nəzərdə tutulur. Bunlar hamısı ona imkan yaradır ki, ipoteka fondu daha çox əhali kateqoriyasını əhatə edə bilsin".

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı isə qeyd etdi ki, fərmanın icrası ilə bağlı əsas mənzərə Nazirlər Kabinetinə verilən 2 aylıq müddətin sonunda bəlli olacaq:** "Fərmanın məzmunundan da görünür ki, əslində bu, ötən ilin 27 oktyabrında verilmiş fərmanın davamıdır. Yəni o fərmanın yarımçıq qalan hissələrinin tamamlanmasıdır. Söhbət ondan gedir ki, İpoteka Fondu yeni ayrı kollegial bir quruma, idarəetmə formasına çevrilir. Burada müvafiq dövlət strukturlarına, məsələn Nazirlər Kabinetinə, Ədliyyə Nazirliyinə, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə həmin qurumun fəaliyyətinin təşkili ilə bağlı həmin fərmanda tapşırıqlar verilir. Söhbət konkret olaraq, İpoteka Fondunun fəaliyyətinin qurulmasından, yeni işlək mexanizmə gətirilməsindən, elektron ipoteka sisteminə keçilməsindən gedir. Zənnimcə, bu elektron ipoteka sisteminə keçirilməsi o qədər də əhəmiyyətli dəyişikliklərə gətirib çıxartmayacaq. Biz hələ ki Nazirlər Kabinetinə verilən iki aylıq müddətin sonunu gözləyirik. Bu müddətdə Nazirlər Kabineti İpoteka Fondu ilə birgə faiz dərəcələri və şərtlərə ediləcək düzəlişlərlə bağlı təkliflər və rəylər hazırlayacaq. Yalnız bu müddəaların əks olunmasından sonra bu proqramı tam olaraq, əhatəli şəkildə şərh etmək mümkün olacaq. İndiki halda hələlik bu fərmanda daha çox texniki məsələlər öz əksini tapıb, bir də, sadəcə, elektron ipoteka sisteminə keçid".

**Fərmana edilən dəyişikliklərin mənzil bazarına təsirinə gəlincə, R. Osmanlı bildirdi ki, əgər qarşıdakı dövrdə ipoteka kreditləri, faiz dərəcələri ilə bağlı ciddi dəyişikliklər edilsə, faizlər aşağı salınsa, ilkin ödəniş azaldılsa, bu, ipotekanın əlçatanlığını artıra bilər və mənzil bazarında əhəmiyyətli dəyişikliyə gətirər:** "İndiki şərtlər daxilində 8 faizlik ipoteka şərtlərinə görə ipoteka krediti götürənin əməkhaqqı 1150 manatdan yüksək olmalıdır. Bu, indiki ağır iqtisadi şərtlər çərçivəsində ipoteka əlçatanlığının azalması deməkdir. Bundan sonra necə olacağı isə ipoteka ilə bağlı təklif edilən dəyişikliklərdən asılı olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

## Milyonlarla müsəlmanın kumuri - "Avro- 2016"da

# İbrahimoviç itkisi











**Futbolun Qulliveri:** "Mənim üçün kədər yoxdur, qürur və minnətdarlıq hissi var. Hər şey üçün sağ olun..."









**Zlatan İbrahimoviç futboldan gedəcəyini ilk dəfə hələ 2014-cü ilin avqustunda demişdi. İsveçli forvard Parisin PSJ klubu ilə müqaviləsinin 2016-cı ilin yayında bitəcəyini və o tarixdən sonra böyük futbolla vidalaşacağını vəd etmişdi. Zlatan iki il əvvəl də futbolçu üçün artıq yaşlı idi: 32 yaş. Həmin vədə yetişdi, İbrahimoviç iki il də qocaldı. 34 yaş futbolçu üçün "əcəl zəngi"dir. Bəlkə də qapıda dayanmaq olar, amma əsl hücumçu üçün 34 yaş artıq son həddir. Meydanda qaldınsa, gərək sonra yarımmüdafiədə olasan, sonra müdafiəyə sığınasan, sonra da qapıçı olasan... Qoca Çex kimi, Buffon kimi... Yeri gəlmişkən, Çex də milli komandadan gedəcəyini Türkiyə ilə son oyundan sonra anons edib.**

Zlatan milli komandada son oyununa çıxacağını "Stad-de-Frans"da Belçika ilə qrup mərhələsindəki oyun ərəfəsi mətbuat konfransında yada saldı. Seçmə mərhələdə milli komandanın 11 topunu vuran Zlatan getdi... "Avro-2016"nı qolsuz tərk edən İbrahimoviç...

***

Zlatan bu tarixi iki il əvvəldən vəd edərkən yəqin ki, İsveçin 2016-cı il Avropa çempionatına vəsiqə qazanacağını və milli komanda da son dəfə forma geyinəcəyini də hesablamışdı. İbrahimoviç Belçika ilə oyuna millinin formasında 116-cı matçına çıxdı. Dörd Avropa çempionatında iştirak edən futbolçu kimi tarixə də adını saldı, kaş ki, Fransada bir qol da vursaydı...

Adam həm də qəribə hisslər yaşayır. Vaxtilə böyüklərimiz bizə Vavanı, Didini tərifləyirdilər, biz də indi Maradonanı, Platinini, İbrahimoviçi övladlarımıza tərifləyirik... "Bilirsən, bala nə futbolçular vardı..." deyərək. Dayanaq! Nostalji üçün hələ zaman var.

***

İbrahimoviçə aşırı marağın və sevginin səbəbləri sırasında şübhəsiz ki, onun milli kimliyi də var. 1.95 boyu ilə meydanda Qulliveri xatırladan Zlatanın futbolkasının Avropadakı və dünyadakı müsəlman məhəllələrində Ronaldodan da, Messidən də məşhur olmasının səbəbi sırasında təkcə asan yadda qalan soyadı deyil. O özü ateist ola bilər, amma türklər üçün Osmanlının bir nişanəsi, müsəlmanlar üçün müqəddəs adın daşıyıcısıdır. Onun dini görüşləri kumirləri üçün çətin ki, maraqlı olsun. Əsas olan "İbra"dır... İbrahim Şəfiq oğlu. Müsəlman uşaqları üçün "İbrahim" digər məşhur ulduz futbolçulardan niyə də bir köynək yaxın olmamalıydı ki? Almaniyada əsas heyətdə 11 oyunçu var, amma müsəlmanlar Məsud Özilin köynəyini daha çox alır...

Ulduz futbolçu baxımından kasad olan İsveçdə də İbrahimoviç bir ikona, bir əfsanədir. Millinin heyətində 62 top vurmuş ulduz oyunçunun futboldan gedişi İsveç mili komandası üçün əvəzedilməz itkidir. Elə dünya futbolu üçün də...

***

Onun obrazı adamı qıcıqlandıra bilər, amma onun futbol oynaması, komanda yoldaşları ilə münasibəti bir nümunədir. Onu indiki "ötür-vurum" hücumçulardan fərqləndirən keyfiyyətlər də var. O çalışırdı ki, özü-özünə qol şəraiti yaratsın. Cərimə meydançasında məhz özünə şərait yaratmaq, topa dəqiq zərbə vurmaq üçün dartışırdı. Ötürmələr alınmayanda oyunçulara hirslənmir, qabalaşmırdı.

"Avro-2016"da İtaliya ilə məğlubiyyətdən sonra Antonio Kontenin əlinin sıxan Zlatan sanki bu hesabdan utanırmış kimi meydanı tərk etməyə çalışdı. Rus idman yazarları bu fakta diqqət çəkərək komandanın baş məşqçisinin də İbrahimoviçi fanatlar tribunasına yaxınlaşması üçün dilə tutmayıb. Ancaq Sebastyan Larson onun biləyindən tutaraq zorla tribunaya tərəf döndərə bilib. İsveçdə azarkeşə üz çevirib getmək azadlığı da yalnız bir nəfər üçün keçərli olub: İbrahimoviç üçün...

***

Zlatan niyə yaxşı futbolçudur, onun ailəsindən, soyundan kimsə futbolla maraqlanıbmı? Zlatan tifaqı dağılmış Yuqoslaviyada bir gün belə yaşamayıb. Atası Bosniya müsəlmanı Şefik İbrahimoviç 1977-ci ildə Yuqoslaviyadan İsveçə köçüb, burda xorvat qadınla evlənib. 1981-ci ilin 3 oktyabrında İsveçin Malmö şəhərində Zlatan anadan olub. Valideynləri cəmi iki il sonra boşanıblar. Onun şəxsi həyatı haqda hekayələr çoxdur, amma ən doğrusunu özü "Mən Zlatanam" adlı kitabında yazıb. Hind filmlərini xatırladır onun həyatı. Tək qalmış ana, çətin həyat, küçə oğurluğu, həbs...

Anası xadimə işləyən Zlatan "anam çox vaxt ağlayırdı, həyatı çox ağır idi. Gün ərzində 14 saat işləyirdi. Bəzən də zibilləri toplamaq üçün biz ona köməyə gedirdik" yazır. Bir gün narkomanlığa qurşanmış əmisi qızının ucbatından polis anasını da həbs edir. **"Mən oradan qaçdım. Küçələrdə dolanır, futbol oynayırdım. Başqalarından daha perspektivli və ya yaxşı olduğumu deyə bilmərəm. Mən, sadəcə, top arxasınca qaçan oğlanlardan biriydim. Komandadakı uşaqlara kəllə atmağı daha yaxşı bacarırdım. Amma futbol mənimdir".**

Yuqoslaviyada parçalanma başlayanda nənəsi bomba partlaması nəticəsində vəfat edir. **"Hamı hüzn içindəydi. Məndən başqa, hamı. Heç vaxt anlamırdım ki, kim serbdir, kim bosniyalı. Amma atam üçün bu dözülməzdir.**

**Mənim isə öz dünyam-velosipedim, futbolum, Brus Li və Məhəmməd Əli ilə bağlı xəyallarım vardı. Onlar kimi olmaq istəyirdim".**

Balaca İbraya atası ilk dəfə 6 yaşında futbol butsisi alır. O vaxtdan da futbolla məşğul olmağa başlayır. İlk klubu "Malmö BI" olur. Komandası 4-0 məğlub olarkən dövrə arasında oyuna girir və səkkiz qol vuraraq qalibiyyəti təmin edir. Erkən yaşlarında "Malmö FF"də nizamlı olaraq forma geyməyə başlayıb (1999-2001-ci illər). Növbəti müqaviləsi isə "Ayaks"la (2001-2004) olub. 2004-cü ildə 16 milyon avroya "Yuventus"a transfer olunub. "Yuventus"dakı karyerası 2006-cı ilə kimi davam edib. Bundan sonra üç il "İnter"də çıxış edib. 2008-də "Barselon"ya keçib. Sonra "Milan"da oynayıb. Son ünvanı Fransanın PSJ kubu olub. İbrahimoviç altı klubun heyətində Çempionlar Liqasında çıxış edib.

2001-ci ildən İsveçin mili komandasına dəvət olunub. Maraqlıdı ki, o, milli səviyyədə ilk qolunu 2001-ci il oktyabrın 7-də məhz Azərbaycana vurub. Ötən il Zlatan Azərbaycana bir də gəlib. "Qolf oynamağa " desə də, sonradan məlum olub ki, dəvətlə ova gəlib. Şamaxıda kabab süfrəsi arxasında fotosu da vardı...

**"Harada olmağımdan asılı olmayaraq, İsveç bayrağı həmişə yanımda olub. Mənim üçün kədər yoxdur, qürur və minnətdarlıq hissi var. Hər şey üçün sağ olun".** İbrahimoviç millidən ayrılarkən son çıxışında belə deyib... Sən də sağ ol hər şey üçün, "İbra". Futbol daha bir əfsanəsi ilə belə vidalaşdı. Meydanda yeri görünəcək...

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT
N 138 (6459) 24 iyun 2016




# Bir gecədə 80 illik ibadət

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Ötən bəhslərimizdə qeyd etdik ki, mübarək Ramazan ayı behiştin bir tikəsidir. Maddi dünyanın ədalətsizliklərlə, hərc-mərclik və haqpozmalarla səciyyələnən ağrıdıcı mahiyyətinidən, yandırıcı cəhənnəmindən sanki bir mənəvi dinclik məqamıdır bu mübarək ay. Sanki tükənməz nemətlərlə zəngin bir İlahi ziyafətdir bu. Və bu ziyafətin ən şərəfli, ən məzmunlu nöqtəsi, ən şah zirvəsi - Qədr gecəsi və bununla bağlı keçirilən əhyalardır. Allah Təala cəmi insanları bu gecələrdən böyük mənəvi pay aparmağa müyəssər etsin, inşəallah!**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Saleh əməlin min misli

Qədr gecəsi ilə bağlı əhyaların dərk edilməsi, fəlsəfəsinə varılması insanın dünyagörüşü, əqidə və imanının möhkəmliyi üçün o qədər əhəmiyyətlidir ki, əlavə təhlil və araşdırmalara ehtiyac vardır.

Qədr gecəsi ilə bağlı 2 mühüm nöqtəyə işarə edilir. Birincisi budur ki, bu gecədə görülən bütün əməllər digər vaxta edilənlərin 1000 misli qədərdir. Misal üçün, insan 1000 ay tövbə edə, bağışlanmaq istəyə, "Allah qapısı»nı döyə. Və bir Qədr gecəsində həmin əməlləri yerinə yetirə. Təsəvvür edək ki, təsir və nəticə baxımından bu 1 gecə 1000 aydan daha üstündür! "Ya Rəbbim! Xətaya yol vermişəm, yanlışlıq etmişəm, bağışla məni, məğfirətini aid et mənə! Qayıdıram Sənə tərəf, bir daha məhvedici yola qədəm qoymayacağam!» - münacat edir bəndə öz Allahı ilə. Və bu bir gecədə etdiyi bu duanın bərəkəti, 80 il edilən yalvarışlardan üstündür - o qədər nemət verib Uca Allah Qədr gecəsinə.

Bu gecənin saleh əməli 1000 ayın gözəl işlərindən üstündür. Elə olur ki, insan çırpınır öz çatışmazlıqlarının torunda, namaza başlaya bilmir, yalandan qurtula bilmir, mənfi vərdişlərdən əl çəkə bilmir. Gündəlik primitiv vurnuxmaların buxovundan nicat tapa bilmir, Imən arzu edirəm Sən istəyən kimi yaşayım, haramlardan qurtulmaq istəyirəm, amma bacara bilmirəm öz zəifliklərimlə, Allahım» - deyə gileylənir bəndə öz durumundan. Və bir gecə var Ramazan ayında ki, xalis və dərin, həqiqi tövbə hesabına insan bilmərrə kənara qoya bilir onu əsarətdə saxlayan, şəxsiyyətini inkişaf etməyə qoymayan xasiyyətlərini. İnqilab edə bilir öz dünyagörüşündə. Atır mənəvi zibilliyə öz eybəcər vərdişlərini. Böyük İlahi rəhmətin zühuru var bu gecədə - Qədr gecəsində.

Qədr gecəsi ilə bağlı ikinci məqam, insanın varlıq olaraq durumundan irəli gəlir. Zatən, ehtiyaclı və müdafiəsiz bir varlıqdır insan. Xarici faktorlardan, təbii və fizioloji amillərdən yüksək dərəcədə asılı vəziyyətdədir. Və təbii ki, insanın əməlləri də naqisliklər və çatışmazlıqlarla doludur. Namazı, orucu, ibadəti, hərəkəti, rəftarı, əxlaqı Həzrət Peyğəmbər (s) və Əhli-Beytinə (ə), İlahi övliyalara xas səviyyədə deyildir, qüsurlarla doludur. Dinimizin məntiqində, Qədr gecəsi əməllərin boşluqlarının, əyər-əskiklərinin, çatışmazlıqlarının cilalanması üçün ən əlverişli məqamdır. İnsan bir iş görür, amma daxilən hiss edir ki, bu, o qədər də Allah istəyən səviyyədə deyildir. Qədr gecəsində özüllərə qoyulmuş həmin əməllərin boşluqları doldurulur.

## Mələklərin nazil olduğu gecə

Əziz Rəbbimiz mübarək Qədr gecəsi ilə bağlı, bu gecənin tanıdılması ilə bağlı, xüsusiyyətləri, vacb cəhətləri ilə bağlı Qurani-Kərimin bir neçə yerində gözəl açılışlar vermişdir. "Qədr" surəsində buyrulur ki, "Mələklər və Ruh o gecədə Rəbblərinin iznilə nazil olarlar...".

Mələklər barədə vəziyyət aydındır. Ruh dedikdə, bir sıra təfsirçilər cənab Cəbrayılı (ə), bəziləri isə digər şərəfli bir varlığı nəzərdə tuturlar. Bu vücudlar həmin gecə nazil olarlar və bu Qədr gecəsindən gələn ilin Qədr gecəsinədək hər bir işin təqdir, tənzim və sabit edilməsini təmin edərlər. Bu gecə Allah Təala mələklərin üzərində öhdəlik müəyyən etmişdir, belə bir şərəfli missiya qoymuşdur ki, insanların işləri üçün nəzm və təqdirat əncam versinlər. İradəvi varlıq olan insanın üzünə gələn ilin necə keçməsi, hansı istedadlarının üzə çıxması, necə nizamlanması həmin gecə həll olunur. Və həmin gecənin necə keçməsi, nəticə etibarilə aqibətinin necəliyi - insanın öz əlindədir. Bu gecəni keçirmə keyfiyyətindən bilavasitə asılıdır.

Mübarək Qurani-Kərimin "Duxan" surəsinin 4-cü ayəsində, Rəbbimiz Qədr gecəsində baş verən bir məsələni də açıqlayır. **"Bu gecədə hər bir iş hikmət əsasında ayrılar".**

Yəni, Qədr gecəsi - bir gecədir ki, Allahın hikməti əsasında hər bir iş digərindən ayrılar, yerbəyer olar. Yaxşının və pisin, çalışqanın və tənbəlin, tanıyanın, mərifətlinin və qəflətdə olanın, alimin və cahilin, ədalətlinin və zülmkarın - hər bir kəsin işi öz müvafiq yerinə gedər, özünə aid "rəflər"ə qoyular. Və nəticədə Zəmanə Sahibinə (ə.f) təhvil verilər.

Ayədən bəlli olur ki, bu işdə bir davamlılıq var. Peyğəmbərimizin (s) vaxtında da ayrılırdı işlər, növlərə bölünürdü, Həzrət Əlinin (ə) də vaxtında, sonrakı dövrlərdə də bu proses gedirdi. O zaman da hər şey müəyyənləşərək, yiyəsinə təhvil verilirdi, indi də hər il iş gedir. Və bu mənəvi-ruhani proses Allahın əmri ilə Qiyamət gününədək davam edəcəkdir.

## Agahlıq zirvəsi

Toxunulan məsələdə nübuvvətlə imamətin bir bağlılığı, onlar arasında bir mənəvi körpünün mövcudluğu sezilir. Burada ümmətin əlindən tutub aparmaq, yol göstərmək missiyası görünür. 23 illik nübuvvəti dönəmində nə kimi əziyyətlərlə qarşılaşdı, nə böyüklükdə itkiər verdi, amma necə şərəfli nümunələr göstərdi, necə əzm və şücaət, əxlaq və mənəviyyat məktəbini miras qoydu Peyğəmbərimiz (s). Dünyadan köçməmişdən öncə ümmətə bir daha bildirdi ki, nicat - Həzrət Əliyə (ə) və ondan sonra gələn digər 11 İmama (ə) bağlılıqdan keçir, zillət isə - bu mübarək vücudlardan ayrı düşməkdən. Və Qədr gecəsində insanların əməlləri bu mübarək İlahi seçilmişlərə (ə) bəlli edilər. Belə bir tərəfi də var Qədr gecəsinin.

İmam Muhəmməd Baqirdən (ə) sual etdilər: "Siz bilirsinizmi Qədr gecəsi (məhz) hansı gecədir?". Buyurdu: "Necə bilməyək?! Bir halda ki, Qədr gecəsində mələklər bizim (yəni İmamların) ətrafımızda dövr edirlər".

İnsanlar Ramazan ayında əhya keçirilən 3 gecədən hansının dəqiq Qədr gecəsi olduğunu bilmirlər. Amma, hədisdən bəlli olur ki, Peyğəmbəri-Əkrəmin (s) xəttinin davamçıları bu günü dəqiq bilir, gözəgörünməz məxluqların İlahi canişin olaraq onlara ehtiram etməsini müşahidə edirlər.

İmam Səccad (ə) buyurur: IHəqiqətən, hər il Qədr gecəsində işlərin təfsir və bəyanı Vəliyyi-əmrə (Zəmanə İmamına (ə)) endirilir, çatdıılır».

Başqa bir yerdə İmam Səccad (ə) buyurur: "Ey yolumuzu gedənlər! "Qədr" surəsi ilə məsum İmamların (ə) müxalifləri ilə müxasimə və mübahisə ediniz ki, (höccəti tamamlayınız ki) uğur qazanasınız".

Yəni İmam (ə) çatdırır ki, "Qədr" surəsi o qədər əzəmətli surədir ki, bunun vasitəsilə siz imaməti inkar edən insanlara höccəti tamamlaya, dürüst məlumatı tamlığı ilə çatdıra bilərsiniz.

Hədisin davamında buyrulur: "Allaha and olsun ki, o surə - Peyğəmbəri-Əkrəmdən (s) sonra Allah Təalanın insanlara höccətidir. Və o surə sizin dininizin ağasıdır və bizim agahlıq və bilgimizin zirvəsi və nəhayətidir".

Eyni oxşar sözləri İmam (ə) "Duxan" surəsinin ilk ayələri ilə bağlı da buyurmuşdur. Həzrət Peyğəmbər (s) isə buyurmuşdur: "Qədr gecəsinə iman gətiriniz, çünki o gecə məndən sonra Əli ibn Əbutalib və onun 11 övladı üçün olacaqdır".

Yəni bu mətləblərdən insan başa düşməlidir ki, Peyğəmbərdən (s) sonra bu nurani rəhbərliyin davamı var və bu rəhbərlik günümüzədək davam edir. Peyğəmbərimiz (s) bizə buyurur ki, Qədr gecəsində bir imamət dərsi gizlənmişdir. Yalnız agahlar bu dərsi görərlər. Qədr gecəsinin mahiyyətini anlayan insan, vilayətə imanlı çıxar bu gecədən. Allah Təala cəmimizi Zəmanə İmamının (ə.f) zühurunun həqiqi müntəzirlərindən, həqiqətən gözləyənlərdən qərar versin!

## Qədr gecəsi və Həzrət Fatimə (s.ə)

Qədr gecəsini Həzrət Fatimənin (s.ə) mübarək vücudu ilə müqayisə edirlər. Kimdir əziz xanım Fatimeyi-Zəhra (s.ə)? Qədr gecəsini bəşəriyyətə bəxş edən Allahın Elçisi olan Həzrət Muhəmmədin (s) əxlaq və kamillik bağının ən nəcib meyvəsi. İslamı ilk qəbul edən qadın olan Həzrət Xədicənin (s.ə) sevimli balası. Qədr gecələrindən birində minbərdə şəhadət şərbətini içən Həzrət Əlinin (ə) ömür-gün yoldaşı, sirdaş və məsləkdaşı. Ümmətin zəlalətli durumuna görə tənha sərkərdəlik acısını dadan İmam Həsənin (ə), Kərbəla şərvəri İmam Hüseynin (ə) əziz anası. Aşura şahidi, öz dəyanət və qəhrəmanlığı ilə lənətlik Yezid istibdadını sarsıdan xanım Zeynəbin (s.ə) mehriban anası. Əhli-Beytə (ə) olan zülmün simvoluna çevrilən, ana bətnində şəhid olan Möhsünün yarasısağalmaz anası.

Ariflər deyərlər ki, gördün ki, duaların qəbul olmur, qəlbin riqqətə gəlmir, tövbə etmək çətin olur - təvəssül et Həzrət Fatiməyə (s.ə). Bu, o qapıdır ki, burada heç bir məzlum əliboş qayıtmaz, dəyanət və şəxsiyyət əldə etmək istəyən, Allahının nəzərində əziz olmaq istəyən öz muradına çatar.

İndi Xanım Fatimə (s.ə) ilə müqayisə edirlər Qədr gecəsini. İmam Cəfər Sadiq (ə) buyurur: "Qədr gecəsi - Həzrət Fatimədir". Davamında buyurur: "Bir kəs ki, Xanım Fatiməni (s.ə) lazım olan kimi tanıya, Qədr gecəsini dərk etmişdir".

Deməli, əgər insan Qədr gecəsini dərk etmək istəyirsə, gərək Həzrət Zəhranı (s.ə) tanısın. Təfsirlərdə bu müqayisənin iki nəcib açıqlanması təqdim edilir. Bildirilir ki, Xanım Fatimə (s.ə) pak İmamların, 11 məsum İmamın (ə) nazil olma məkanıdır, İmamlar (ə) anasıdır. Qədr gecəsi də haqqın əmrinin İmamlar (ə) üçün nazil olma məkanıdır.

İkinci nöqtə ona qayıdır ki, Həzrət Fatiməni (s.ə) tanıyan - vəlisini tanıyar. Vəlisini tanıyan Qədr gecəsini dərk edər. Bir insan Xanım Fatiməni (s.ə) tanısa, imamətə gəlib çıxar. Bir kəs Qədr gecəsini anlamaq istəsə, bilər ki, bu gecə Zəmanə Sahibinə (ə) Allahın əmrlərinin çatdırılması gecəsidir. Yəni həm Həzrət Fatiməni (s.ə) tanımaqla insan imaməti dərk edə bilər, həm də Qədr gecəsinin mahiyyətinə varmaqla. Allah Təala cəmi insanlara bu mübarək anlamlara çatmaq mərifətini qismət etsin!

İnsanın öz daxilinə nəzər salması, ruhi-mənəvi qüvvələrinin yüksək səviyyəli konsentrasiyasına nail olması üçün Ramazan ayındakı Qədr gecəsinin əhyaları böyük imkanlar təqdim edir. Əməl edən insan bu gecələrdən təmizlənmiş, yeniləşmiş, sonunu, yekununu xeyrə calamış bir halda çıxacaqdır. Pislikləri, xətaları, mənfilikləri ilə qurtarmış halda çıxacaqdır. Və gələcək dövr üçün çox təsirli bir impuls əldə edə biləcəkdir. Alimlər Qədr gecələri ilə bağlı qeyd edirlər ki, bəzən bu gecədəki mənəvi hal insana o qədər təsir qoyur ki, gələn ildəki Qədr gecəsinə qədər, hətta bəzən ömrünün sonuna qədər onun düşüncəsində, əxlaqında, rəftarında dərin və müsbət bir iz qoyur.

Hər kəs öz tutumuna, mənəvi yükü qəbul etmə qabına uyğun olaraq, Qədr gecəsindən nə isə götürə bilər. Hərə öz istedadlarına, imkanlarına müvafiq bu mənəviyyat çeşməsindən qəlbinə doldura bilər. Bulaq həmişə var, qabı tədarük etmək və doldurmaq istəyi - insandandır. Və çalışıb həmin bu tutumu, qabı artırmalıdır insan. Mənəvi yük götürmə qabiliyyətini yüksəltməlidir insan. İmam Museyi-Kazim (ə) öz sadiq səhabələrindən olan Hişama buyurmuşdur: **"Ey Hişam! Bizdən deyil o kəs ki, özünü hər gün mühasibə etməyə. Bəs yaxşı əməlləri müşahidə etdikdə, bunları artırsın. Və pis əməl müşahidə etdikdə, o əmələ görə Allahdan bağışlanma, istiğfar istəsin və Ona doğru qayıtsın".**

## Niyə əməllər neçə bərabər artırılır?

Qədr gecəsinin nuraniyyətini anlamaq üçün bir onu xatırlamaq kifayətdir ki, bütün bəşəriyyətin nicatı üçün nəzərdə tutulmuş Qurani-Kərim bu gecədə nazil olmuşdur. Bu, bir gecədir ki, mələklər dua edən insanları arayarlar. Bu gecədə sübhədək salamatlıq olur. Bu gecənin saleh əməlləri 1000 aydakı saleh əməllərdən daha üstündür. İmam Muhəmməd Baqirdən (ə) sual edirlər: "Qədr gecəsinin 1000 aydan üstün olmasının məqsəd və hədəfi nədir?" İmam (ə) buyurdu: "Bu gecədə yerinə yetirilən namaz, zəkat, sədəqə, infaq və digər müxtəlif saleh əməllər, Qədr gecəsinə (malik) olmayan min ay müddətində yerinə yetirilən hər bir saleh əməldən üstündür".

Qədr gecəsinin fəzilətləri və əməllərinin üstünlüyü ilə bağlı nəql edilən digər hədisdə İmam Muhəmməd Baqir (ə) buyurur: **"Əgər Allah Təala möminlərin əməllərini neçə bərabər etməsə, bunlar kamal həddinə yetişməzlər. Amma Allah Təala (lütfündən irəli gələrək) onların yaxşı əməllərini neçə bərabər buyurur, ta ki, əskikliklərin yeri dolsun".**

İnsanın əməllərinə olduğu kimi yanaşılsa, durumu çətin olar. Amma Allahın qüdrəti, əzəməti, lütfü ilə yaxşı əməllər bir neçə dəfə artırılır və bununla da əyər-əskiklər aradan qaldırılır. Və Qədr gecəsinə bu xüsusi lütf verilmişdir.

İndi bir kəs bu lütfü, bərəkəti dərk edib, amma bundan bəhrələnə bilməyibsə, onda yazıqlar olsun ona. Necə ki, Böyük İslam Peyğəmbəri (s) buyurur: **"Bir kəs ki, Qədr gecəsini dərk edə və (bununla belə bağışlanmaya) - Allahdan uzuq olsun!"**

Allah Təala insana bu feyzlərdən bəhrələnmək üçün bütün imkanları təqdim etmişdir. Amma insan edə bilər ki, bunları əldə etsin, edə də bilər ki, özünü məhrumiyyətə məruz qoysun. Rəsuli-Əkrəm (s) buyurur: **"Həqiqətən, mübarək Ramazan ayı sizə tərəf üz tutub. Bu ayda bir gecə vardır ki, min aydan üstündür. Hər kim Qədr gecəsinin feyzindən məhrum olmuşdur - bütün xeyirlərdən binəsib qalmışdır. Və özünü məhrum etmiş kəslərdən başqa, heç kəs Qədr gecəsinin bərəkətlərindən məhrum qalmır".**

**Allah Təala cəmi insanlara bu mənəvi feyzləri qəbul etmək durumunu nəsib etsin!**

**Allahım, bizi İlahi nemətləri dərk edib, bunlardan bəhrələnmək qabiliyyətinə malik et!**

**Allahım, bizləri düzgün seçim edənlərdən, Peyğəmbər (s) və Əhli-Beytin (ə) həqiqi davamçılarından qərar ver!**

**Allahım, işğal altında olan torpaqların, ibadətgahların tezliklə qəsbdən qurtulmasını, 12-ci İmam - Həzrət Mehdi Sahib əz-Zamanın (ə.f) tezliklə zühur etməsini nəsib et! Amin!**

# QMİ və Dini Komitənin "haram oyunu" - günahkar "çadır mafiyası"...

## Yas mərasimlərində niyə israfçılığın qarşısını almaq mümkün olmur?
## **Fazil Mustafa:** "Problem insanların din anlayışının zəifliyindədir..."

**Yas mərasimlərindəki israfçılıq cəmiyyətimizin ən ciddi problemlərindən biri olaraq qalır. Ölkənin ziyalısı, deputatı, naziri, jurnalisti belə danışanda yaslardakı dəbdəbədən, israfçılıqdan narazılığını dilə gətirir. Ölünün diriyə "yük" olmasından narazı olan hər kəs yas mərasimlərində yalnız çay süfrəsinin açılması ilə razıdır. Belədirsə, çoxluq buna qarşıdırsa, bəs niyə əməl edə bilmirik?**



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bununla bağlı son açıqlamasında deyilir: "Cəmiyyətimiz bahalı ehsan süfrələri, qəbir pulu, molla pulu altında "əzilir". Ölmüş şəxsin ailəsini xərcə salmaq, ehsan vermək məqsədilə süfrə açmaq yalnız insanlar tərəfindən uydurulmuş mərasimlərdir. Yas məclislərinin sadə şəkildə keçirilməsinin vacibliyi, israfçılığa yol verilməməsi mövzusunda cəmiyyətin maariflənməsində din xadimlərinin, məclisləri aparan axund və imamların da üzərinə mühüm vəzifə düşür".

**QMİ-nin mövqeyi isə belədir ki, dəbdəbəli toy və yas məclisləri sosial bərabərsizliyi dərinləşdirməklə cəmiyyətdə təbəqələşmə yaradır, verilən yemək çeşidləri israfa səbəb olur:** "Mərasimlərin təşkili zamanı israfçılıq hallarının qarşısının alınmasında cəmiyyətimizin birgə səyləri, ictimai qınaq olduqca vacibdir. Bu məsələ, sadəcə, din xadimlərinin vasitəsilə deyil, eyni zamanda ağsaqqalların iştirakı ilə də həll olunmalıdır. Biz Naxçıvanda din və dövlət adamlarının mərasimlərdə ifrat əleyhinə keçirdiyi kampaniyanı dəstəkləyirik".

Xatırladaq ki, 2014-cü ilin yay aylarında yas mərasimlərində israfçılığın qarşısını almaq üçün böyük kampaniya başladıldı. Paytaxt Bakıda və əksər bölgələrdə inzibati yollarla belə israfçılığın qarşısı bir müddət alındı. Amma davamı gəlmədi. Çünki bu kampaniya kimlərəsə sərf etmirdi. Mərasim zallarından, VİP çadırlardan gələn gəlirdən imtina etmək kimlər üçünsə elə də asan deyildi və olmadı da. Sanki cəmiyyət arasında ilahiyyatçılar, ziyalılar isfraçılığın əleyhinə danışdıqca "çadır mafiyası" buna qarşı çıxdı.

Elə ilk sual da belə yaranırdı: "Niyə Şeyxin nəzarətindəki "Təzəpir" məscidindəki mərasim zallarında israfçılığın qarşısı alınmır? Niyə 10-dan çox zalı olan "Təzəpir"də dövlət rəsmilərinin yaxınlarının belə yas mərasimlərində süfrəyə istənilən təam düzülməlidir? Məgər bu, QMİ-nin dediyi kimi, haram deyil?"

Cəmiyyət arasında haqlı olaraq yaranan bu suallar hələ ki cavabsız qalır. QMİ özünün haram buyurduğu əməllərdən çəkinmədiyi halda, xalq bunu necə izah edə bilər? Şeyx və onun idarəsi Naxçıvan modelini dəstəklədiyini açıqlayıb. Ancaq bu modelin geniş tətbiqi üçün heç bir addım atmayıb.

Naxçıvanda yas mərasimlərində israçılığın qarşısı necə alındı? Mərasimlərdə ehsan süfrəsinə çay, limon, xurmadan başqa heç bir təamın düzülməməsi ilə bağlı Naxçıvan rəhbərliyi tərəfindən göstəriş verildi, vəssalam. Ancaq QMİ öz tabeçiliyindəki "Təzəpir" və "Heydər" məscidlərində dəbdəbəli ehsan süfrələrinə qadağa qoymaqda maraqlı deyil. Məlumat üçün bildirək ki, Bakıda ən yüksək qiymətə yas mərasimləri adlarını çəkdiyimiz iki məsciddə təşkil olunur.

Dini Komitə isə əsas günahı "çadır biznesi" ilə məşğul olan işbazlarda da görür. Ancaq xeyir və şər adətləri ilə bağlı məsələlərin tənzimlənməsi məqsədilə qanun layihəsinin qəbul edilərək tətbiq olunmasına böyük ehtiyac olduğunu deyən komitə nədənsə bu mövzu ilə bağlı QMİ-ni günahlandırmaq istəmir.

Mövzu ilə bağlı musavat.com-a danışan deputat Fazil Mustafa məsələnin həll yolunun tapılmamasının əsas səbəbini insanların din anlayışında olduğunu dedi: "Əksər insanlarda dinin mahiyyəti haqda məlumat yoxdur və ona görə də dinin tələblərini diqqətə almırlar. Ona görə də öz bildikləri adət-ənənəni tətbiq edirlər. Başqa bir səbəb isə insanların saxta din anlayışına sahib olmasıdır. Hər kəs başqasının görüntüsü əsasında həyatını yaşayır. Başqasına yaxşı görünmək üçün geyinir, keçinir. İnsan özünə yaraşanı düşünmür. Yas mərasimlərindəki israfçılıq də məhz bunlarla bağlıdır. Dünya görüşü, düşüncə burada böyük rol oynayır. İnsanlara izah edəndə ki, sən mahiyyətcə nə istəyirsən? Vəfat etmiş şəxsin xatirəsinin yad edilməsini istəmirsənmi? Yad edilmək nədir? İnsanlar gəlir başsağlığı verir və gedir. Yas mərasiminə gələn şəxs orada yemək yesə də, yeməsə də heç nə dəyişməyəcək. Buna görə də yas mərasimləri ilə bağlı danışılan məsələlər qanunla, qərarla deyil, xalqın dəyərlərinin, dinə baxışının dəyişməsi ilə mümkündür. Bu da olmasa, yəqin ki, bir yeniləşmə olmayacaq".

**Deputat israfçılığın qarşısının inzibati yollarla da alına biləcəyini deyir. Lakin bunun əsas çıxış yolu kimi seçilməsinin əleyhinədir: "İnsanları inandırmaq yolu daha yaxşıdır".** "Çadr mafiyası"ndan danışan F.Mustafa qeyd etdi ki, həmin şəxslərin burada böyük maddi maraqları olduğundan təsir güclərini artırırlar: "Onlar inzibati və ya digər yollarla bu məsələnin həll olunmasına qarşıdırlar. Əldə olunan gəlir onların bu işə müdaxiləsini vacib edir".

❑ **İ.MURADOV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**




# "BakuBus" avtobuslarında sərnişinlərin "kondisioneri söndür-yandır" qovğası

## **Mənsur Piriyev:** "Kondisioneri söndürməyi tələb edənlər nəzərə almalıdır ki, bu, ictimai nəqliyyatdır"

**Yayda Bakı sakinlərinin problemlərindən biri də kondisionersiz avtobuslarla bağlıdır. "BakuBus" avtobuslarını çıxmaq şərti ilə paytaxtda avtobuslarda kondisioner sistemi yoxdur. Yayın istisində Bakıətrafı qəsəbələrə və ya kəndlərə getmək əsl işgəncəyə çevrilir.**

Xüsusilə pik saatlarda avtobusda insan əlindən tərpənmək olmur. Bu zaman onsuz da isti olan avtobus daha dözülməz olur. Sürücülər bəzən içəri hava daxil olması üçün çıxış yolunu avtobusun qapılarını açıq saxlamaqda görür ki, bu da çox təhlükəlidir. Sürücülərin özləri də mövcud vəziyyətdən narazıdır.

Onlar çıxış yolunu şəhərdəki bütün avtobusların "BakuBus" avtobusları ilə əvəz edilməsində görürlər. Bu maşınlarda kondisioner və ventilyator sistemi var. Ancaq "BakuBus"un bəzi sürücüləri də bu sistemdən istifadə etmirlər. Səbəb olaraq isə qapıların tez-tez açılıb örtülməsini göstərirlər...

Bəzən isə kondisionerin işə salınmamasının günahı sərnişinlərdə olur. Bir sərnişin sürücüdən kondisioneri söndürməsini tələb edir, hay-küy salır və sürücü də məcbur olaraq sistemi bağlayır. Digər sərnişinlər isə kondisioneri yandırmağı tələb edirlər. Nə edəcəyini bilməyən sürücü çaş-baş qalır.

Maraqlıdır, bu cür situasiyada sürücü necə davranmalıdır? O xəstə, yaşlı olan hansısa bir sərnişinin istəyi ilə kondisioneri söndürə bilərmi?

**"BakuBus" MMC-nin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mənsur Piriyev hər zaman çoxluğun fikrinin nəzərə alındığını dedi:** ""BakuBus"da fəaliyyət göstərən sürücülərin hər biri əvvəlcədən təlimat alırlar. Təlimlər zamanı onlara avtobusun bütün texniki imkanlarından istifadə etmək öyrədilir. Eyni zamanda da kondisionerlərdən istifadə etmək öyrədilir. Ümumiyyətlə, avtobuslarda hava temperaturunun müəyyənləşdirilməsi xüsusi mütəxəssislər tərəfindən mərkəzləşdirilmiş qaydada olur. Bizdə əvvəlcədən hava proqnozu olur. Biz həmin hava proqnozuna uyğun şəkildə avtobusun kondisioner temperaturunu müəyyənləşdiririk. Bu avtobuslarda sərnişinlərin kondisionerin temperaturunu istədikləri kimi qaldırıb endirmə imkanları yoxdur. Sərnişindaşıma ilə bağlı qəbul olunmuş beynəlxalq standartlar var. Məsələn, Bakıda bu gün havanın temperaturu 30 dərəcədirsə, biz kondisioneri 20-21 dərəcədə müəyyənləşdiririk. Hansı ki, bu normadır. Avtobusda 50 nəfər adam varsa, ola bilər onun 5 nəfəri soyuq sevməyən və ya soyuq dəyməsi olan insandır və kondisioneri söndürməyi tələb edir. Amma biz hər zaman çoxluğun fikrini nəzərə alırıq. 20 dərəcə temperaturdan heç kim narahat ola bilməz. Kondisioneri söndürməyi tələb edənlər nəzərə almalıdır ki, bu, ictimai nəqliyyatdır. Burada hər şəxsin istəyinə görə temperatur dəyişmək mümkün deyil. Bu məsələyə fərdi yanaşmaq düzgün deyil. Amma hava şəraiti dəyişirsə, biz hava şəraitini bir gün əvvəldən nəzərə alıb temperaturu dəyişirik. Qəbul olunmuş standartlardan kənara çıxmırıq".

Qeyd edək ki, bir sıra ölkələrdə kondisionerli avtobuslarla yanaşı, kondisionerli dayanacaqlara da rast gəlinir. Gələcəkdə Bakıda da bunun olacağı gözlənilir.

❑ **Günel MANAFLI**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

# YENİ MÜSAVAT

Son səhifə

N 138 (6459) 24 iyun 2016




## Hər gün belini bankalatdı, sonda...

"Daily Mail" qəzetində yer alan xəbərə görə, Çində bir adam hər gün belini bankalatdığı üçün belində deşiklər yaranıb. 63 yaşındakı Li Lin adlı adam bu üsuldan istifadə edərsə, bunun donmuş belinə yaxşı təsir edəcəyini düşünüb. Son 1 ayda hər gün belini bankalatdığı üçünsə bu, ciddi fəsadlara səbəb olub. Seansların hər birində bankalar ayrı-ayrı yerlərə yerləşdirilib. Son 10 gündə bankanın yerində qabarcıqlar yaranmağa başlayıb. Li müalicəyə son vermək əvəzinə belinə yağla masaj edilməsini istəyib. Getdiyi son seansdan qayıdanda özünü pis hiss edən və qızdırması qalxan adam dərhal xəstəxanaya gedib. Xie Liang adlı həkim isə bildirib ki, Li təcili yardıma gələndə qızdırması 37.7 dərəcə olub və beli tamamən şişib. Müayinə nəticəsində isə bədənində bakterial infeksiya tapılıb. Həkimlər deyib ki, əgər kişi dərhal xəstəxanaya gəlmək əvəzinə, belini bankalatdırmağa davam etsəydi, qan zəhərlənməsi ilə qarşılaşa bilərdi. Hazırda Linin həyati təhlükəsi yoxdur və vəziyyəti də yaxşılaşmağa doğru gedir. Həkimlər deyir ki, belin bankalanması dəridə yanığa və infeksiyaya səbəb olduğu üçün hər dəfə fərqli nöqtələrə qoyulmaq lazımdır.

## Bu, avtobus deyil, saraydır

Amerikada istehsal edilən Oasis adlı avtobus lüks, stil və komfortu mükəmməl şəkildə birləşdirib. Onu daha çox məşhur müğənnilər və Hollivud ulduzları seçirlər. Onun istehsalında istifadə edilən material, idarəetmə rahatlığı ilə yanaşı, səyahət edənlər üçün də ayrıca bir təcrübə yaşadır. Möhtəşəm avtobusun qiyməti isə 2 milyon dollardır. Oasisin alt mərtəbəsində özəl bir əyləncə otağı yerləşir və bu, bir ilkdir. Parket şkafları, qranit döşəmələri olan avtobus lüks bir evdən heç nə ilə fərqlənmir. Avtobusun mətbəxi də öz növbəsində ön plana çıxır. Avtobusun başlanğıc qiyməti 2 milyon dollar olsa da, istehsalçı firmaya verilən sifarişlərdən asılı olaraq qiymət 2.5 milyon dollara qədər arta bilər.



## Atasız uşaqlar aqressiv olur




Kanadanın Mc Gil Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, atasız böyüyən uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan dava aqressiv olurlar. Mütəxəssislər atası olmayan uşaqlarla ata-anaları ilə birlikdə böyüyən uşaqların beyinlərini müqayisə ediblər. Araşdırmalar bitdikdən sonra məlum olub ki, atasız uşaqların beyinlərində sosial əlaqələri tənzimləyən hissədə pozuqluqlar əmələ gəlir. Yəni valideynlərindən uzaqda qalan uşaqların davranışlarında anormallıq daha tez nəzərə çarpır. Belə uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan daha aqressiv olurlar. Mütəxəssislər atasız böyüyən qız uşaqlarının sinir sisteminin həssas olduğunu da bildiriblər. Belə uşaqlar böyüdükləri zaman çox aqressiv olurlar və ətrafdakılara zərər verməyə çalışırlar. Xüsusilə qız uşaqları spirtli içkilərə və narkotik maddələrə meylli olurlar.

Məlumat üçün bildirək ki, mütəxəssislər anasız böyüyən uşaqların heç vaxt özlərinə güvənmədiklərini və kökəlməyə meylli olduqlarını deyirlər.

## Dünyanın ilk üzən evi satışa çıxarıldı



Dubayda dünyanın ilk üzən evi suya endirilib. Ağırlığı 200 tondan az olmayan evlərin 10 ədədi artıq satılıb. Möhkəmliyi ilə tanınan kompozit maddədən tikilən evlərin 60 ədədi satışa çıxarılıb. Bu günə qədər həmin evlərlə bağlı xeyli anons verilsə də, nəhayət, onun satışı həyata keçirilib. Evin qiyməti barədə hər hansı açıqlama verilməsə də, onu dünyanın ən varlı adamlarının alacağı şübhəsizdir.



## İnsan ölür, amma şüuru yaşayır

Elm adamları ölümdən sonra da şüurun davam etdiyini kəşf ediblər. Bu qənaətə İngiltərə, Amerika və Avstraliya həkimləri 15 xəstəxanada apardıqları araşdırmadan sonra gəliblər. İnfarkt keçirən, kliniki olaraq ölən və yenidən geri qayıdan 2 min insan üzərində edilən tədqiqatdan sonra məlum olub ki, həmin insanların 40 %-nin beyni dayansa belə, şüuru itmir. İnfarkt keçirən 57 yaşlı bir ingilisin ürəyi 3 dəqiqəlik dayansa da, "o dünyadan" geri qayıtdıqdan sonra ətrafındakı həkimlərə nə gördüyünü danışmağa başlayıb. Bəzi xəstələr kinolarda təsəvvür edilən kimi, ağ parlaq işıq gördüyünü, bəziləri isə bir əlin onların boğazından bərk yapışaraq boğmağa çalışdığını söyləyiblər.

Bir qrup xəstələr isə qorxu, təəccüb və rahatlıq dolu bir hiss yaşadığını deyib. Qeyd edək ki, edilən araşdırmalardan sonra Amerikanın tanınmış alimlərindən Sam Parnia insan öldükdən sonra şüurunun itmədiyini söyləyib.




**QOÇ** - Ulduzlar ayın ən uğurlu və maraqlı günlərindən birini yaşayacağınızı bəyan edir. Bir tərəfdən şəxsi işlərinizdə müsbət dönüş baş verəcək, digər tərəfdənsə perspektivli təklif alacaqsınız.

**BUĞA** - Sağlamlığınızla bağlı əmələ gəlmiş problemləriniz azalacaq. Amma günün birinci yarısında daha çox istirahət etməlisiniz. Nahardan sonra isə varlanma ehtimalınız mümkündür.

**ƏKİZLƏR** - Uğurlu gün hesab etmək olar. Ötən on gündə yığdığınız gərginlik xeyli səngiyəcək. Günün ikinci yarısında maraqlı görüş və qonaqlıqlarda iştirakınız da gözlənilir. Məğrur olun.

**XƏRÇƏNG** - Bürcünüzün "hakimiyyət kürsüsündə" tam əyləşməsi qarşınızda ciddi seçim qoyacaq. İndi konkret addım atmaq yox, yalnız götür-qoy etmək lazımdır. Yeni əlaqələrə isə can atmayın.

**ŞİR** - Ruhunuzu bürüyən gərginliklə mübarizədə daxili rahatlığınızı bərpa edə biləcəksiniz. Bunun üçün maraqlı ünvanlarda olmağınız da vacibdir. Qlobal məsələləri məhz bu gün planlaşdırın.

**QIZ** - Qarşınızda sürpriz dolu bir təqvim dayanıb. Odur ki, passivlik göstərməməli, bütün enerjinizi nəzərdə tutduğunuz planların həlli istiqamətinə yönəltməlisiniz. Axşam mübahisədən çəkinin.

**TƏRƏZİ** - Yalnız maliyyə məsələlərinin həllində uğur qazana bilərsiniz. Hansısa riskli hərəkət və ya yeni işə başlamaqsa uğursuzdur. Ailə üzvlərinizlə, dostlarınızla mübahisəyə yol verməyin.

**ƏQRƏB** - Planetlərin bürcünüzdəki müsbət düzümü bu təqvimi romantik tərzdə başa vuracağınıza dəlalət edir. Ən azı iki istiqamətdən sevindirici xəbər ala bilərsiniz. Saat 19-21 aralığında isə ehtiyatlı olun.

**OXATAN** - Qızğın iş günü olsa da, əsas vaxtınızı istirahətə həsr edin. Yeni əməkdaşlıq haqqındakı planlarınızı müvəffəqiyyətlə başa vurmaq istəyirsinizsə, yaxşı-yaxşı götür-qoy edin.

**OĞLAQ** - Təxminən saat 14-ə qədər istirahət etməyiniz məsləhətdir. Onsuz da həmin ərəfədə hansısa ciddi bir iş görməyiniz çətindir. Sonrakı müddətdə isə əksinə, aktivliyinizi artırmalısınız.

**SUTÖKƏN** - Dünəndən mənfi enerjili Ayın bürcünüzə daxil olması səbəbindən ovqatınız aşağı ola bilər. Amma reallığa obyektiv qiymət verməklə çıxış yolu tapa bilərsiniz. Həmkarlarınızla mülayim davranın.

**BALIQLAR** - Səbəbsiz narahatçılığınızı dəf etmək üçün yeni mühitdə, yeni insanlar arasında olmağınız məsləhətdir. Bu səbəbdən qonaq getməyə hazırlaşın. Səhhətinizə də fikir verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Başının içindən bağırsaq çöpləri çıxdı



31 yaşındakı Yadira Rostro adlı texaslı qadın getdikcə artan baş ağrılarına görə həkimə müraciət edib. Amma bu zaman da ortaya qəribə nəticə çıxıb. Həkimlərin apardığı araşdırmalar nəticəsində məlum olub ki, qadının beynində 8 bağırsaq qurdu çöpü var. Neyrocərrah Riçard Meyrat bildirib ki, bağırsaq çöpləri qida yolu ilə beyinə yoluxub. Həkimlik karyerası boyunca heç vaxt belə bir hadisə ilə qarşılaşmadığını deyən həkim zavallı qadının ölmədiyi üçün şanslı olduğunu deyib. Bağırsaq çöplərini təmizləyəndən sonra qadının baş ağrıları da keçib və vəziyyəti düzəlib.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750